3 iyul 2020-ci il
№19 (8883)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Təhsil millətin gələcəyidir!
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**34 gənc 11 ölkənin 22 ən nüfuzlu universitetində doktorantura təhsili alacaq**
⇨səh.2

**Mingəçevir Dövlət Universitetində "Məzun günü - 2020"**
⇨səh.3

**Buraxılış imtahanlarında bir şagird maksimal nəticə - 300 bal toplayıb**
⇨səh.3

**"Müsabiqələrdə bərabər qələbələrə imza atırıq"**
⇨səh.7

# Təhsil nazirinin Respublika fənn olimpiadalarının qaliblərinə təbriki




Əziz Respublika fənn olimpiadalarının qalibləri!

Sizi qazandığınız uğur münasibətilə səmimi qəlbdən təbrik edir, gələcək təhsilinizdə sizə yeni nailiyyətlər arzu edirəm.

Mövcud pandemiya şəraiti bir çox planlarımızın, görəcəyimiz işlərin təxirə düşməsinə səbəb oldu. Amma biz bu şəraitdən də müəyyən çıxış yolları tapdıq. Pandemiya dövründə yaşanan çətin günlərdə qazandığınız uğurlar bizi çox sevindirdi. Şübhəsiz ki, uğurlara sahib olmağınızda yüksək fədakarlıq göstərən müəllimlərimizin əməyi də danılmazdır. Bu günlərdə mövcud imkanlar səfərbər edildi, hər kəs təhsilimiz üçün böyük səy göstərdi.

Ölkəmizin sizin kimi parlaq zəkaya sahib övladlarının olduğunu bilmək gələcəyə inamımızı daha da artırır. Mən çox şadam ki, siz bu günlərdə ruhdan düşmədiniz və daha da əzmlə çalışaraq böyük nailiyyət əldə etdiniz. Gələcək sizin ağlınızda, zəkanızda və çalışqanlığınızdadır.

Hər birinizi bir daha qalib olmağınız münasibətilə təbrik edir, yeni-yeni uğurlar arzulayıram.

# Azərbaycan dili dərsliklərinə konseptual yanaşmalar

## Dərsliyin yaradılması pedaqoji hadisədir

Dərs keçən və ya dərs dinləyən hər kəsin təfəkküründə dərslik fenomeni barədə düşüncələr onları daha tələbkar olmağa, bu barədə daim axtarışlar aparmağa sövq etmişdir. Tarixdən məlum olduğu kimi, məktəbdarlıqla məşğul olanlar bu ehtiyac və tələbatları ödəmək üçün müxtəlif zamanlarda zəruri hesab etdikləri resurslara əsaslanmışlar. Bir neçə min il əvvəl qədim şumerlər gildən hazırlanmış lövhələrdən dərslik kimi yararlanmışlar. Dövr dəyişdikcə onlar məşhur olan və insanların daha çox üz tutduqları, inam göstərdikləri əsərlərə müraciət etmişlər. Qurani-Kərimdən bir dərslik kimi istifadə edən müəllimlər onun müxtəlif surə və ayələrini öyrətməklə uşaqlarda ruh yüksəkliyi, mənəvi kamillik formalaşdırmağa çalışmışlar. Yaxud Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərləri üzərində iş aparılmaqla uşaqların bir insan kimi formalaşmasına təsir göstərmiş, həm də onlarda elementar yazı və oxu bacarığını irəlilətməklə onun inkişafına nail olmağı qarşıya qoymuşlar. Marağa və təcrübəyə istinadən aparılan bu iş prosesində uşaqlar daha çox biliklə, məlumatlarla qarşılaşır, öyrəndiklərinin elmi-nəzəri xarakterdə şərhinə geniş yer ayırırdılar. Şagirdlərin nailiyyətlərinin səviyyəsinə də bu məntiqlə yanaşılırdı. Lakin bu proses sonda məntiqi olaraq təlim kursunun praktik yöndə funksiyasının zəifləməsi ilə nəticələnirdi.

Məsələ bundadır ki, hazırlanan təlim vəsaitlərində də belə bir tendensiya davam etdirilirdi. Orada daha çox nəzəri materialların verilməsi yüksək qiymətləndirilirdi. Bununla da mahiyyət etibarı ilə dərsliyin fundamental xarakter daşıması müsbət çalar kimi dəyərləndirilirdi.

Elə bu pozisiyada hazırlanan dərsliklərin, xüsusilə də Azərbaycan dili dərsliklərinin geniş və əsaslı linqvistik anlayışları əhatə edə bilməsinə onun müsbət cəhəti kimi yanaşılırdı.

⇨Ardı səh.5

## Vətəndaşların qəbulu avqustun 1-dək dayandırılıb

Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə müvafiq qərara uyğun olaraq, Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzi 2020-ci il avqustun 1-dək fəaliyyətini dayandırıb.

Təhsil sahəsində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi vasitəsilə cavablandırılacaq. Vətəndaşlar həmçinin Nazirliyin rəsmi *office@edu.gov.az* elektron poçt ünvanına müraciət edə və elektron resurslarında *(www.edu.gov.az; www.ict.edu.az)* təqdim edilən müxtəlif e-xidmətlərdən yararlana bilərlər.

Rəsmi məlumatları Təhsil Nazirliyinin internet saytı *(www.edu.gov.az)* və sosial şəbəkələrdəki səhifələrindən izləmək tövsiyə edilir.

## 90 illik yubileyində UNEC-in daha bir uğuru

RUR reytinq agentliyi dünya universitetlərinin ixtisaslar üzrə reytinqini açıqlayıb.

Dünya universitetlərinin müxtəlif ixtisaslar üzrə daxil olduğu bu reytinq sıralamasında Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) daha bir uğura imza atıb.

Universitetdən verilən məlumata görə, texniki elmlər ixtisası üzrə UNEC dünya üzrə 718-ci, Azərbaycan üzrə isə birinci yerdə qərarlaşıb. Həmçinin təbiət elmləri ixtisası üzrə UNEC dünya üzrə 692-ci, Azərbaycan üzrə isə ikinci yerə yüksəlib.

Məlumat üçün bildirilib ki, RUR reytinq agentliyi 2013-cü ildə fəaliyyətə başlayıb və Moskva şəhərində yerləşir. Agentlik hər il dünya universitetlərinin reytinqini və ixtisaslar üzrə reytinq sıralamasını təyin edir. Dünyanın 82 ölkəsindən 1100-dən artıq universitetinin fəaliyyətini 20 indikator və 4 sahə - təhsil, tədqiqat, beynəlxalq əlaqələr və maliyyə dayanıqlığı üzrə qiymətləndirir. RUR reytinq agentliyi universitetlərin tədqiqat fəaliyyətini "Clarivate Analytics" şirkətinin tədqiqat bazaları əsasında ölçür.

# Mövcud vəziyyətdə ən səmərəli həll yolu

"Mən məktəbə hazıram. Nurəngiz müəllimin sinfində oxuyacağam. Hərflərin hamısını tanıyıram. Hələ oxuya da bilirəm. 20-yə kimi sayıram, onları toplayıb çıxıram. Heyvanları - quşları, yırtıcıları, bitkiləri, meyvələri tanıyıram. Planetlərin adını da bilirəm. İngilis və rus dilində çoxlu sözlər öyrənmişəm. Bütün rəngləri seçirəm. Məktəbin başlamağını həvəslə gözləyirəm".

Xədicə İbrahimli bu il birinci sinfə gedəcək. Məktəbini və müəllimini hələ mart ayından seçib. Bakının Yasamal rayonundakı 158 nömrəli tam orta məktəbdə təhsil alacaq birincilərdən biri də məhz o olacaq.

### Bakı məktəblərinə qeydiyyat davam edir

Hazırda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinə və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I siniflərinə şagird qəbulu aparılır. Bu il mart ayının 10-dan aktivləşdirilən proses sentyabrın 15-dək davam edəcək. Artıq paytaxt məktəblərinin birinci sinfinə qəbul olmaq üçün elektron sistem vasitəsilə 44 000-dən çox uşaq üçün müraciət edilib. Azərbaycan dilində təhsil almaq istəyən paytaxt sakinlərinin əksəriyyəti, demək olar ki, təhsil alacağı məktəbi də, müəllimi də seçiblər. Ancaq qeydiyyat prosesi bitmədiyindən indidən 2020-2021-ci tədris ilində birinci sinfə qəbul olunacaq birincilərin sayı ilə bağlı konkret fikir söyləmək mümkün deyil.

### Tədrisi digər dildə aparılan bölmələri seçənlər üçün müsahibələr

Ümumi təhsil məktəblərinin tədrisi digər dildə aparılan bölmələri üzrə təhsil almaq istəyənlər isə əvvəlcə müsahibələrə qatılırlar. Şifahi nitq bacarıqlarının qiymətləndirilməsi məqsədi ilə keçirilən həmin müsahibələr uşaqların məktəbə qəbulu zamanı əsas şərtlərdən biridir. Odur ki, ümumi təhsil məktəblərinin tədrisi digər dildə aparılan bölmələri üzrə I sinfə müraciət edən və məktəbəhazırlıq qruplarına cəlb edilməmiş uşaqların I sinfə qəbulu məqsədilə şifahi nitq bacarıqlarını qiymətləndirən müsahibələr təşkil olunur. Bu il ilk dəfə olaraq ümumi təhsil məktəblərinin tədrisi digər dildə aparılan bölmələri üzrə məktəbəhazırlıq qruplarına cəlb edilmiş uşaqların I sinfə qəbulu zamanı da müsahibələr keçirilib.

⇨Ardı səh.4

## Şagirdlərimiz beynəlxalq müsabiqədə qalib oldu

Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdləri Böyük Britaniyada keçirilən Beynəlxalq Gənc İnnovasiyalar (BIEA 2020) müsabiqəsində uğur qazanıb.

Finalda yer tutan 12 komandadan biri də Azərbaycan komandası olub. Liseyin şagirdləri Ruslan Bayramov, Elvin Bilalov və Süleyman İsmayılov "Best Effort Award" nominasiyası üzrə yarışmanın ən yaxşısı seçiliblər.

2019-cu ildən Londonda keçirilən müsabiqənin builki mövzusu "Sahilləri qoruyaq" adlanır. Məktəblilərimizin sudan və qurudan plastik tullantıları təmizləmək üçün hazırladıqları qurğu xarici mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib.

Şagirdlərimizin nailiyyəti haqda məlumat xarici mətbuatda da *(https://www.openpr.com/news/2080685/innovation-from-young-scientists-to-tackle-beach-plastic-waste)* dərc olunub.



# Dünyanın ən gənc universitetləri

Son 50 ildə Asiyada yeni ali təhsil müəssisələrinin sayında davamlı artım müşahidə olunur

Səh.8



# Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoymuş, öz fəaliyyəti ilə müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, istiqlal ideyalarının yayılmasında, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir.

Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır.

Azərbaycan Respublikasında milli mətbuat ənənələrinin qorunması və təbliğ edilməsi məqsədilə, kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatındakı yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan milli mətbuatının 145 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın:

2.1. koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

# 34 gənc 11 ölkənin 22 ən nüfuzlu universitetində doktorantura təhsili alacaq

**Ruhiyyə DAŞSALAHLI**

2018-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" qəbul olunub. Elə həmin vaxtdan Proqram çərçivəsində iki komponent - xaricdə doktorantura təhsilinin maliyyələşdirilməsi və ikili diplom proqramlarının təşkili üzrə işlərə start verilib. Azərbaycan iqtisadiyyatı üçün prioritet sayılan ixtisas sahələri üzrə xaricdə doktorantura təhsilinin maliyyələşdirilməsi komponenti üzrə həyata keçirilən ilk qəbulun nəticələri artıq bəllidir. Bununla da, yaxın illər ərzində Azərbaycan təhsil sistemi və əmək bazarı üçün dünyanın 500-ə yaxın ən yüksək səviyyəli universitetində təhsil almış azərbaycanlı tələbələrin doktorantura səviyyəsi üzrə təhsilinin maliyyələşdirilməsinə başlanılır. Sentyabr ayından başlayacaq bu prosesin sonunda təhsilini tamamladıqdan sonra ölkəsinə qayıdaraq iqtisadiyyatın inkişafına töhfə verəcək 34 nəfərin adı açıqlanıb. Həmin şəxslər 11 ölkənin 22 ən nüfuzlu universitetində doktorantura təhsili almaq hüququ qazanıb.

**2021-ci ilin yanvar semestri üçün növbəti qəbul sistemi aktivləşdirildi**




### 9 yerli ali təhsil müəssisəsi bu prosesdə iştiraka qoşulub

Təhsil Nazirliyinin "2019-2023-cü illərdə Dövlət Proqramı"nın İdarəetmə Qrupunun rəhbəri səlahiyyətlərini müvəqqəti icra edən, Xaricdə təhsil və əcnəbi tələbələrlə iş sektorunun müdiri Müjdət Həsənov deyib ki, ümumilikdə 67 nəfər sənəd verərək "2019-2023-cü illərdə Dövlət Proqramı" çərçivəsində xaricdə doktorantura təhsili üçün müraciət edib. Onlardan 45 nəfəri müsahibə mərhələsinə buraxılıb. Müsahibə mərhələsində 29 nəfər müsbət, 8 nəfər mənfi nəticə alıb. 7 nəfərin namizədliyi birbaşa təsdiq edilərək müsahibədən azad olunub. 2 nəfər müsbət nəticə alan namizəd şəxsi məsələlərə görə təhsil almaqdan imtina edib.

Proqramın ilk iştirakçıları Türkiyə, Almaniya, Birləşmiş Krallıq, İtaliya, Belçika, ABŞ, Fransa, Rusiya, Niderland Krallığı və Lüksemburqda təhsilini davam etdirəcəklər. Doktorantura səviyyəsi üzrə də Türkiyədə təhsilə üstünlük verənlər çoxluq təşkil edir. Tələbələr arasında hazırda həmin ölkələrdə təhsil alanlar da var. Təhsilalanların seçdiyi əsas tədqiqat sahəsi təbiət ixtisasları üzrə (26 faiz) olub. Müraciət edənlərin 20 faizi iqtisadiyyat və idarəetmə ixtisaslarını, 18 faizi səhiyyə və rifah, 15 faizi texniki və texnoloji ixtisasları seçib. 9 yerli ali təhsil müəssisəsi bu prosesdə iştiraka qoşulub. İştirakçılar Dövlət Proqramı çərçivəsində təhsillərini bitirdikdən sonra Azərbaycana qayıdaraq müqavilə tərəfdaşı olan həmin yerli ali təhsil müəssisələrində fəaliyyətə cəlb ediləcəklər. Yerli ali təhsil müəssisələri siyahısında Azərbaycan Tibb Universiteti, Xəzər Universiteti, Bakı Mühəndislik Universiteti, ADA Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dillər Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin adı yer alıb.

### İki hissədə maliyyələşmə həyata keçirilir

Dövlət Proqramı çərçivəsində xaricdə doktorantura təhsili üzrə 2 hissədə maliyyələşmə həyata keçirilir. Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədlinin sözlərinə görə, birinci hissə universitetlərə qəbul olan tələbənin təhsil haqqı, ikinci hissə isə tələbənin yaşayış xərcləri üçün ödənilir. İkinci hissənin məbləği tələbənin oxuduğu ölkənin yaşayış standartına uyğun müəyyən edilir. Əgər tələbə oxuyursa, təhsil haqqı proqram tərəfindən veriləcək. Ancaq pandemiya şəraitinə uyğun olaraq dərslər onlayn keçirilərsə və tələbə həmin şəhərdə deyilsə, bununla bağlı ayrıca qərar qəbul ediləcək. Belə ki, təhsil aldığı şəhərdə olmayanların yaşayış xərci ödənilməyəcək.

Nicat Məmmədli xaricdə təhsillə bağlı doktorantura proqramına qəbul olunan şəxslərin ailə üzvlərinin yaşayış xərclərinin ödənilməsi məsələsinə də toxunub. Dünya təcrübəsinə əsaslanan şöbə müdiri fərdə verilən təqaüdün onun bütün xərcləri üçün nəzərdə tutulmadığını deyib: "Bu, əməkhaqqı deyil, ailənin təminatı üçün verilən məbləğ deyil. Dünyanın heç bir yerində belə yanaşma yoxdur. Ona görə yalnız fərdin özünün təhsil haqqı və yaşayış xərci ödənilir. Tələbələr çalışaraq ailə xərclərini ödəyə bilərlər. Təhsil Nazirliyi həmin tələbələrin işləməyinə məhdudiyyət qoymur. Hər hansı məhdudiyyət varsa, bunu onların təhsil aldığı dövlət qoya bilər. Bu qaydalar ölkədən-ölkəyə dəyişir. Məsələn, Amerikada təhsil vizası olanların yalnız 20 saat işləmə icazəsi var. Kanadada işçi vizası da verilir və həmin tələbələr işçi sayılır".

### Pandemiya xaricdə təhsilə marağı azaltmayıb

Azərbaycan gənclərində xaricdə doktorantura təhsili almağa maraq olduğunu deyən Müjdət Həsənovun sözlərinə görə, pandemiya Dövlət Proqramı çərçivəsində təhsilə mane olmayacaq: "Doktoranturada gündəlik dərslər deyil, tədqiqatdır. Dövlət proqramına qəbul olan bəzi gənclər artıq çarter reysləri ilə qəbul olunduqları ölkələrə gedə bilərlər. Digər tələbələr isə pandemiya ilə bağlı hazırda təhsil davam etməyən universitetlərə onlayn formada qoşulacaq, vəziyyət normallaşandan sonra təhsil yerlərinə gedə biləcəklər".

### İkili diplom proqramları

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın ikinci komponenti - ikili diplom proqramlarının təşkili üzrə də artıq nəticələr var. Belə ki, təsis edilməsi nəzərdə tutulan 5 ikili diplom proqramından 4-ü üzrə işlər yekunlaşmaq ərəfəsindədir. Azərbaycan Dövlət Pedaqoji və ADA universitetlərinin Amerikanın Corc Vaşinqton Universiteti ilə magistratura səviyyəsində ikili diplom proqramları artıq yekunlaşıb. Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında aqrar elmlər ixtisasları istiqaməti üzrə, Koreya Respublikasının İNHA ali təhsil müəssisəsi ilə Bakı Mühəndislik Universiteti arasında mühəndislik ixtisasları üzrə bakalavriat səviyyəsində ikili diplom proqramları üzrə işlər isə yekunlaşmaq üzrədir.

Sadalanan 4 proqram üzrə 2020/2021-ci tədris ili üçün tələbə qəbulu həyata keçiriləcək.

### Növbəti qəbul sistemi aktivləşdirildi

Beləliklə, ölkəmizdə xaricdə təhsili nəzərdə tutan daha bir Dövlət Proqramı start götürdü. Dünyanın nüfuzlu universitetlərində doktorantura təhsili alacaq ilk 34 nəfərin müəyyənləşməsindən dərhal sonra 2021-ci ilin yanvar semestri üçün növbəti qəbul sistemi aktivləşdirildi. Avqustun 2-dək sənədləri hazırlayıb müraciət edən hər kəs bu il xaricdə doktorantura təhsili almaq hüququ qazanacaq daha 30, 40, hətta 50 gəncdən biri ola bilər. Təhsil Nazirliyi və Dövlət Neft Fondu elm yolunda çalışmağa hazır gənclərə öz dəstəyini göstərəcək. Odur ki, səhiyyənin, təhsilin, iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafında "Mənim də payım olsun", - deyənlər üçün təhsilini artırmağın, özünü inkişaf etdirməyin tam zamanıdır.

# Respublika fənn olimpiadalarının nəticələri barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

2019-2020-ci tədris ili üzrə həyata keçirilmiş məktəblilərin Respublika fənn olimpiadalarının nəticələrinin elan edilməsi məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2019-2020-ci tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (nəticələrin siyahısı əlavə olunur).

**2.** Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsi (E.Məmmədov) əmrin çoxaldılıb aidiyyəti struktur qurum və bölmələrə, yerli təhsili idarəetmə orqanlarına çatdırılmasını, eyni zamanda "Azərbaycan müəllimi" qəzetində və Təhsil Nazirliyinin internet səhifəsində dərc edilməsini təmin etsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*30 iyun 2020-ci il*

# Layihə çərçivəsində beynəlxalq konfrans

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) və Xəzər Universitetinin təşkilatçılığı ilə UniLab layihəsi (610245-EPP-1-2019-1-BE-EPPKA2-CBHE-JP) çərçivəsində "Universitetlər və kompaniyalar: tərəfdaşlıqda çətinliklər və perspektivlər" adlı virtual beynəlxalq konfrans keçirilib.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı konfransı açaraq universitetlər və kompaniyaların əməkdaşlığının daha da genişləndirilməsinin vacibliyini vurğulayıb və konfransın işinə uğurlar arzulayıb.

Açılış hissədən və iki plenar sessiyadan ibarət olan onlayn konfransın birinci bölməsində Xəzər Universitetinin rektoru, dosent İradə Xəlilova, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru, dosent Rafiq Camalov, Milli Erasmus + Ofisinin rəhbəri Pərviz Bağırov, Azərbaycan Respublikası Energetika Nazirliyinin Elektroenergetika və enerji səmərəliliyi şöbəsinin müdir müavini Vüsal Musayev iştirak ediblər.

Dünyada, o cümlədən Azərbaycanda koronavirus (COVID-19) epidemiyasının yayılmasına qarşı aparılan tədbirlər planına uyğun olaraq onlayn formatda keçirilən konfransda universitetlər, onların qarşılıqlı elmi əlaqələri, çətinliklər və perspektivlərlə bağlı geniş fikir mübadiləsi aparılıb. Müxtəlif ölkələrdən və Azərbaycandan spikerlərin (dinləyiçilər) fəal iştirakı konfransı daha da məhsuldar edib. Konfransa həmçinin, SOCAR, "Azərişıq" ASC, "AzerGold" QSC, Data SoCool. "Bakı Abadlıq" MMC, VTB bank, Xəzər Universiteti eLink Tədqiqat və İnkişaf Mərkəzindən, "Turan Drilling &Engineering" şirkətindən spikerlər qatılıblar.

Qeyd edək ki, ADNSU-nun da tərəfdaş olduğu UniLab layihəsində Pompeu Fabra Universiteti (İspaniya), Lille Universiteti (Fransa), Krems Universiteti (Avstriya), Qomel Dövlət Universiteti, Mogilyov Dövlət Universiteti (Belarus), Orenburq Dövlət Universiteti, Sibir Dövlət Universiteti, Lomonosov adına Moskva Dövlət Universiteti, Almeteyvsk Neft Universitetinin (Rusiya) nümayəndələri iştirak edirlər.

# Buraxılış imtahanlarında bir şagird maksimal nəticə - 300 bal toplayıb

İyunun 10-u və 11-də keçirilmiş buraxılış imtahanlarının (XI sinif üzrə) nəticələrinə əsasən, imtahan iştirakçıları arasında 1 nəfər - Abşeron rayonu Xırdalan şəhər 1 nömrəli tam orta məktəbin məzunu Abdullayev Hüseyn Yaşar oğlu toplanıla biləcək maksimal nəticə - 300 bal toplayıb.

Eləcə də, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil məktəblərinin bir sıra məzunları buraxılış imtahanlarında yüksək nəticə göstəriblər. BŞTİ-nin tabeliyindəki 36 nömrəli tam orta məktəbin məzunu Çələbiyev Ayxan Elxan oğlu paytaxt üzrə ən yüksək nəticə göstərib. O, 297,7 bal toplayaraq Bakı şəhər birincisi olub. Bundan başqa, paytaxtdakı 57 nömrəli tam orta məktəbin məzunu Bulud Uğur Seyran oğlu və 178 nömrəli tam orta məktəbin məzunu İsmayılov Elmir Fuad oğlu 297,1 bal toplayıb.

Qeyd edək ki, buraxılış imtahanında şagirdlərə (abituriyentlərə) ana dili fənnindən 4 açıq və 26 qapalı, riyaziyyat fənnindən 4 açıq, 8 kodlaşdırılan açıq, 13 qapalı, xarici dil fənnindən 4 açıq və 26 qapalı tipli tapşırıq olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunub. Bu mərhələdə fənlərin hər biri üzrə toplanıla biləcək maksimal bal 100 olmaqla, ümumilikdə 300 baldır.

# Peşə təhsili istiqaməti üzrə layihə çərçivəsində görüş

"Qəbələ, İsmayıllı və Qax rayonlarında kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təlimi pilotlarının yaradılması" (ED VET) layihəsinin İdarəetmə Komitəsinin sonuncu görüşü keçirilib.

Onlayn formatda təşkil edilən görüşdə Avropa İttifaqının Azərbaycan nümayəndəliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, pilot peşə təhsili mərkəzlərinin nümayəndələri, pilot rayonların Məşvərət Şuralarının sədrləri, ED VET layihəsinin ekspertləri iştirak ediblər.

Görüşdə layihə heyəti son hesabat dövründə görülən işlər, layihə müddətində qazanılan təcrübə barədə məlumatları bölüşüblər. Həmçinin pilot peşə təhsili müəssisələrinin və layihə çərçivəsində ərsəyə gələn Məşvərət Şuralarının sədrləri ED VET layihəsi sayəsində əldə etdikləri nailiyyətlər barədə iştirakçıları məlumatlandırıblar.

Sonda müstəqil ekspertlər tərəfindən layihənin nəticələrinin qiymətləndirilməsinin yekunu barədə təqdimat olub.

Qeyd edək ki, ED VET layihəsi Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə "Azərbaycanda Peşə təhsili və təlimi mərkəzlərinin müasirləşdirilməsi" qrantı çərçivəsində "Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH" tərəfindən icra olunur.

# Mingəçevir Dövlət Universitetində "Məzun günü - 2020"

## 2019-2020-ci tədris ilində bakalavr və magistratura səviyyələri üzrə 450-yə yaxın gənc məzun oldu

İyunun 29-da Mingəçevir Dövlət Universitetində (MDU) "Məzun günü - 2020" tədbiri keçirilib. "Zoom" platforması üzərindən online formatda keçirilən tədbirdə cari tədris ilində MDU-dan məzun olan tələbələr və magistrantlar, eləcə də valideynlər və universitetin əməkdaşları iştirak ediblər. "Məzun günü - 2020" tədbirinin iştirakçılarını salamlayan MDU-nun rektoru Şahin Bayramov 2019/2020-ci tədris ilində bakalavriat və magistratura səviyyələri üzrə ümumilikdə 450-yə yaxın gəncin universitetdən məzun olduğunu bildirib, bütün məzunları, onların müəllimlərini və valideynlərini təbrik edib. Rektor məzunların öz müəllimlərindən əldə etdikləri biliklərin təcrübi bacarıqlarla zənginləşdirilməsində mühüm rol oynamış MDU-nun tərəfdaşlarına təşəkkürünü bildirib.







2020-ci ilin MDU ailəsinin hər birinin həyatına yeniliklər gətirdiyini qeyd edən Ş.Bayramov yeni çağırışlarla qarşılaşdığımız bir zamanda universiteti bitirən məzunların əsl fədakarlıq göstərdiklərini vurğulayıb. Rektor hazırda dünyamızın sınaq qarşısında olması və hamılıqla gözəgörünməz düşmənlə mübarizə aparılması səbəbindən gənclərin ürəyincə olan, yeniliklərlə zəngin "Məzun Günü" keçirə bilmədiklərini diqqətə çatdırıb. Universitetin doğma divarları arasında keçirməyi arzu etdikləri "Məzun günü"nün daha möhtəşəm ola biləcəyini deyən rektor tədbiri mövcud informasiya texnologiyalarının yaratdığı imkanlardan faydalanmaqla keçirmək qərarını verdiklərini bildirib. Universitet məzunu olmağın böyük nailiyyət və əhəmiyyətli uğur olduğunu qeyd edən Şahin Bayramov bu uğurun əldə olunmasında yardımçı olmuş müəllimləri və məzunların ailə üzvlərini də təbrik edib, onlara təşəkkürünü bildirib.Təhsil aldıqları müddətdə MDU ailəsinin üzvünə çevrilən tələbələrin bundan sonra həmin ailədə məzun statusunda təmsil olunacaqlarını qeyd edən rektor bu ailənin professor-müəllim heyəti, tələbələr, magistrantlar və məzunlar üçün ortaq dəyər olduğunu vurğulayıb. O, bu dəyəri qorumaq, bu dəyəri uca tutmaq və bu dəyərə layiq olmaq üçün MDU ailəsinin bütün üzvlərinin üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb.

Ş.Bayramov cari tədris ilinin məzunlarının universiteti innovasiyaların rolunun kəskin artdığı, dördüncü sənaye inqilabının başlandığı, süni intellektin sürətlə inkişaf etdiyi və rəqəmsal texnologiyaların həyatımıza güclü nüfuz etdiyi bir dövrdə bitirdiklərini bildirib. O, məzunların milli və beynəlxalq əmək bazarında rəqabət mübarizəsinin kəskin xarakter aldığı, qlobal dünyamızın mövcud nizamının sürətlə dəyişdiyi və hər birimizin yaşam tərzinin durmadan yeniləndiyi bir vaxtda universitet məzunu olduqlarını da deyib. Rektor gənclərin doğma Azərbaycanımızın davamlı inkişaf etdiyi, ölkəmizdə insan kapitalının əhəmiyyətinin sürətlə artdığı və post-neft dövrünün reallıqlarından irəli gələn çağırışların gücləndiyi bir dövrdə universitet məzunu olduqlarını da əlavə edib.

MDU-da əldə etdikləri biliklər, qazandıqları kompetensiyalar və topladıqları təcrübə sayəsində məzunların yeni dövrün tələblərinə uyğun yüksək ixtisaslı mütəxəssis kimi formalaşdıqlarını qeyd edən Ş.Bayramov hər bir məzunu öz daxilində olan yüksək potensialın fərqində olmağa, həmin potensialı üzə çıxarmaq üçün daim çalışmağa, hər bir şəxsin potensialının onun xəyalları qədər olmasını unutmamağa və xəyallarını reallığa çevirməyə yetərli olan gücünün olmasına daim inanmağa çağırıb.

Ş.Bayramov məzunları qarşılarına real məqsədlər və əlçatan hədəflər qoymağa, professional inkişaf yollarını məhz həmin hədəflərə uyğun qurmağa, bu zaman səhv etməkdən qorxmamağa və səhvlərin onları uğura aparan yolda olmasına inanmağa dəvət edib. Rektor bu yolda bütün məzunlara cəsarət, əzmkarlıq və özünəinam arzulayıb.

Ş.Bayramov məzunlara gənclik enerjisini düzgün qiymətləndirməyi, zamanın dəyərini bilməyi, universiteti bitirməyin biliklər əldə etməyin bitməsi demək olmadığı fikrini əsas götürməyi və "öyrənəcəklərim öyrəndiklərimdən hər zaman çoxdur" yanaşmasını unutmamağı tövsiyə edib. Məzunların bilik və təcrübəsinin daim artırılmasının vacibliyini qeyd edən rektor bu işdə MDU-nun onlara daim dəstək göstərməyə hazır olduğunu bildirib. O, məzunları müəllim, iqtisadçı və mühəndis kimi fəaliyyət göstərəcəkləri qurumlara, ziyalı kimi isə yaşadıqları cəmiyyətə faydalı olmağa, ən əsası isə xalqımıza, dövlətimizə və vətənimizə layiq vətəndaş olmağa çağırıb.

Cari tədris ilinin əvvəlindən başlayaraq MDU-da hamılıqla yeni bir missiyaya start verdiklərini vurğulayan rektor hazırda universitetin sürətlə dəyişdiyini, yeniləndiyini və müasirləşdiyini diqqətə çatdırıb. O, bir qədər fərqli reallıqlar şəraitində başa vurduqları tədris ili ərzində sonuncu kurs tələbələri və magistrantların da fəal iştirakı ilə MDU-nun strateji hədəflərinə doğru inamlı addımlar atdıqlarını bildirib.

Onlayn tədbirdə "Məzun Günü - 2020" tədbirinin iştirakçılarına videotəbriklər nümayiş olunub. Universitetin məzunlarını, rəhbərliyini və professor-müəllim heyətini Azərbaycan Respublikasının Təhsil Nazirliyi adından salamlayan Təhsil nazirinin müavini Firudin Qurbanov MDU-nu uğurla bitirən bütün məzunlara səmimi təbriklərini çatdırıb və onlara gələcək həyatlarında uğurlar diləyib. Gənclərin ali təhsil müəssisəsindən ölkəmizin sürətlə inkişaf etdiyi bir dövrdə məzun olduğunu qeyd edən F.Qurbanov paytaxtla yanaşı regionlarda da müasir tələblərə cavab verən universitetlərin fəaliyyət göstərdiyini və MDU-nun məhz belə universitetlərdən biri olduğunu vurğulayıb. Nazir müavini cari tədris ili ərzində MDU-da müsbət dəyişikliklərin baş verdiyini və uğurlu islahatların aparıldığını da diqqətə çatdırıb.

Tədbirdə video-formatda çıxış edən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov hazırda ölkə başçısının birbaşa rəhbərliyi ilə ölkəmizdə koronavirus (COVID-19) pandemiyasına qarşı məqsədyönlü mübarizə tədbirlərinin həyata keçirildiyini bildirib. Mövcud şəraitdə MDU-da "Məzun günü" tədbirinin online formatda keçirilməsini alqışladığını qeyd edən İ.İsmayılov məzunları təbrik edib və onların layiqli mütəxəssis kimi Azərbaycanımızın inkişafına töhfələr verməsini arzulayıb.

Məzunları təbrik edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev MDU-dan məzun olan gənclərin müstəqil Azərbaycan dövlətinin gələcəkdə daha sürətli inkişafı üçün var gücləri ilə çalışacaqlarına inandığını bildirib. Məzunların öz potensiallarını gerçəkləşdirməklə gələcək həyatlarını uğurla quracaqlarını qeyd edən B.Əliyev onların MDU-da aldıqları bilik və bacarıqların müstəqil dövlətimizin daha da güclənməsinə xidmət edəcəyinə əminliyini vurğulayıb. O, məzunlara həm öz adından, həm də Milli Məclisin Elm və təhsil komitəsi adından uğurlar arzulayıb.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı, MDU-nun məzunu Tahir Məmmədov növbəti dərs ilinin bitməsi münasibətilə universitetin məzunlarını və müəllimlərini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O, regionun ən güclü və dinamik inkişaf edən dövləti kimi Azərbaycanın daha böyük hədəflərinin olduğunu və hazırda neft ölkəsindən qeyri-neft ölkəsinə transformasiya olunduğunu bildirib. Bu prosesdə insan resurslarının mühüm rol oynadığını qeyd edən T.Məmmədov MDU məzunlarının dövlətimizin və cəmiyyətimizin inkişafına böyük töhvələr verəcəyinə inandığını bildirib.

Azərbaycan Respublikası Milli Məclisinin Mingəçevir şəhərindən seçilən deputatı Aydın Mirzəzadə məzunları təbrik edib və MDU-nun keçdiyi inkişaf yoluna yaxşı bələd olduğunu bildirib. Vaxtilə MDU-da dərs dediyini qeyd edən millət vəkili hazırda bu universitetin ölkəmizin tanınan və öz nüfuzunu günü-gündən artıran ali təhsil müəssisələri sırasında olduğunu vurğulayıb. A.Mirzəzadə MDU məzunlarının hazırda Mingəçevir şəhərinin və ölkəmizin ictimai-siyasi həyatında və iqtisadi quruculuğunda fəal iştirak etdiklərini diqqətə çatdırıb. O, qədəm qoyduqları yeni həyatın məzunlardan bilik, yenilik, vətənpərvərlik, tariximizə və milli dəyərlərimizə bağlılıq tələb etdiyini bildirib.

"Azərbaycan İES" MMC-nin direktoru Təhmasib Hüseynov, Mingəçevir Regional "ASAN Xidmət" Mərkəzinin direktoru Elxan Cəfərov, Mingəçevir şəhər Gənclər və İdman İdarəsinin rəisi Kamal Nəcəfli, "Mingəçevir Tekstil" MMC-nin direktoru Mehman Hüseynov, Mingəçevir şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru, MDU-nun İctimai Nəzarət Şurasının üzvü Ədalət Quliyeva, "Mingəçevir işıqları" qəzetinin baş redaktoru, MDU-nun İctimai Nəzarət Şurasının üzvü Fərman Nəbiyev, "Mingəçevir Gənclər Evi" Sosial Xidmət Müəssisəsinin direktoru Tural Kərimov, Mingəçevir Yüksək Texnologiyalar Parkı nəzdində "SİMBİOZ" Texnoloji Biznes İnkubatorun koordinatoru Orxan Nadirov, valideynlər Vəfa Hacıyeva, Sadəddin Cəfərov, Elşad Hacıyev bütün məzun olan gəncləri və universitetin professor-müəllim heyətini təbrik, onlara yeni-yeni uğurlar arzu ediblər.

Tədbirdə çıxış edən məzunlar Kəmalə Hacıyeva, Məhəmməd Kərimov, Elsəvər Cəfərov, Günel Məmmədova və Könül Aydın MDU məzunu olmaqdan qürur duyduqlarını, müasirləşməkdə olan doğma universitetlərini layiqincə təmsil etməyə çalışacaqlarını və onların üzərində böyük əməkləri olan müəllimlərinə daim minnətdar olacaqlarını bildiriblər.

Daha sonra təhsil müddətində yüksək akademik göstəricilər göstərmiş və MDU-nun ictimai həyatında fəal rol oynamış bir qrup məzunun MDU-nun Fəxri Fərmanı ilə təltif olunması barədə rektorun müvafiq əmri oxunub.

Tədbirin sonunda məzunların MDU haqqında təəssüratlarını əks etdirən video-çarxlar və MDU tələbələri tərəfindən məzunları təbrik məqsədilə hazırlanmış video-musiqilər nümayiş etdirilib. MDU-dan məzun olan Bağdagül Baliyeva və İranə Budulovanın iştirakı ilə çəkilmiş "MDU Məzunu 2020" video-klipi tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.



# Mövcud vəziyyətdə ən səmərəli həll yolu

## Onlayn müsahibələrdə uğur qazananların nisbət göstəricisi bu il daha yüksəkdir

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Müsahibə nəticəsi məqbul hesab edilən uşaqlar üçün növbəti tədris ili üzrə I sinfə elektron sistemdə avtomatik sorğu yerləşdirilir. Yəni uşaq məktəbəhazırlıq qrupunda hansı məktəbdə, hansı müəllimdə qeydiyyata alınıbsa, I sinifdə də eyni qaydada tədrisə davam edəcək. Müsahibə nəticəsi məqbul hesab edilməyən uşaqlar üçün isə Azərbaycan bölməsi üzrə məktəb seçimi imkanı yaradılır. Bu isə uşaqların daha səlis bildiyi dildə təhsil almasına imkan verir. Ekspertlər əmindir ki, bu halda uşaqların tədris nailiyyəti də daha yüksək olur.

### Valideynlər müsahibənin formasını özü seçir

Ötən ilədək tətbiq edilən müsahibələr zamanı azyaşlı komissiya qarşısına çıxaraq özünün şifahi nitq bacarığını göstərmək üçün müxtəlif suallara cavab verirdi. Ancaq builki müsahibələr zamanı mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınıb. Belə ki, yeni növ koronavirus infeksiyasının yayılma sürətini azaltmaq məqsədi ilə məsafədən təhsilə keçildiyi kimi, müsahibələrdə də alternativ olaraq onlayn müsahibə forması təklif edilib. Valideyn iki variantdan birini seçir. Ya övladının ənənəvi (canlı) formada müsahibəyə qatılmasını istəyir, ya da evindən çıxmadan, harasa getmədən onlayn müsahibəyə üstünlük verir. Onlayn müsahibə formasını seçənlərlə “Microsoft Teams” - *http://teams.microsoft.com/-downloads* platforması vasitəsilə videobağlantı yaradılır və komissiya üzvləri uşaqla ünsiyyət qurur.

Videobağlantı bu il birinci sinfə gedəcək Altun Hüseynli ilə də qurulub. Anası Sevinc Hüseynova deyir ki, əvvəlcə o da ənənəvi müsahibə formasını seçib: “Təhsil Nazirliyi onlayn müsahibəni seçməyi tövsiyə etmişdi. Sonradan tövsiyəyə əməl etməyə qərar verdim. Tərəddüdüm oğlum Altun Hüseynlinin onlayn müsahibədən uğurla çıxa biləcəyinə inamsızlıqdan irəli gəlirdi. O, çox fəal uşaqdır. Hətta dəcəldir. Ona görə də onlayn müsahibədə diqqətini toplaya, tanımadığı insanlarla ünsiyyət qura bilməyəcəyindən ehtiyatlanırdıq. Ancaq sonradan vəziyyəti və Nazirliyin tövsiyələrini nəzərə alıb onlayn müsahibə formasına üstünlük verdik. Yaxşı ki, qərarımızı dəyişdik. Müsahibə zamanı anladıq ki, narahatlığımız əbəs olub. Komissiya üzvləri çox qısa vaxt ərzində - bir neçə saniyəyə Altunun diqqətini özlərinə çəkə bildilər. Hətta Altun komissiya üzvlərindən oyuncaq istədi. Onlar da oyuncaq çıxardıb onunla səmimi ortam yarada bildilər. Altunun marağını müəyyən etmək, onu məhz bu istiqamətdə söhbətə çəkmək onlar üçün çətin olmadı. Oğlum kosmonavt olmaq istəyir. 10 dəqiqəyə yaxın sürən müsahibədə Altun onlara kosmonavtikadan danışdı. Sonra ondan nağıl soruşdular. Çox maraqla komissiya üzvlərinə nağıl söylədi. Hiss olunurdu ki, komissiya üzvlərini uşağın hər hansı sualın cavabını bilib-bilməməsi deyil, onun seçdiyimiz tədris dilində düşünüb-danışmağı maraqlandırır”.

### Onlayn müsahibələrə maraq artıb

Beləliklə, ümumi təhsil müəssisələrinin tədris digər dildə aparılan bölmələri üzrə məktəbəhazırlıq qruplarına cəlb edilməmiş uşaqların I sinfə qəbulu üçün onlayn müsahibələri də təşkil olundu. Demək olar ki, qeydiyyatdan keçənlərin mütləq əksəriyyəti onlayn müsahibə formasını seçdi. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınmasına yönəlmiş tədbirlərin səmərəliliyinin artırılması baxımından onlayn müsahibələrə marağın artdığını vurğulayıb: “Valideynlərə, yaxud uşaqların qanuni nümayəndələrinə onlayn və ya ənənəvi (canlı) müsahibə formasını seçmək imkanı yaradılsa da, təsadüfi deyil ki, valideynlər daha çox onlayn müsahibələrə üstünlük verirlər. Bu yol mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə uyğun olaraq seçilsə də, valideynlərin və uşaqların rahatlığının təmin olunması və əlavə vaxt itkisinin qarşısının alınmasına xidmət edir. Onlayn müsahibələrin keçirilməsinin üstünlüyünü həm də nəticələr baxımından qeyd edə bilərik. İlkin müşahidələrimiz deməyə əsas verir ki, uşaqlar ailə üzvlərinin yanında, ev mühitində özlərini daha sərbəst ifadə etməyi bacarır. Odur ki, onlayn müsahibələrdə uğur qazanmış uşaqların nisbət göstəricisi bu il daha yüksəkdir”.



Xədicə İbrahimli



Altun Hüseynli

B.Məmmədovun fikrincə, onlayn müsahibələr valideyn və uşaqlara psixoloji cəhətdən də müsbət təsir göstərir, uşaqların şifahi nitq bacarıqlarının qiymətləndirilməsi ilə bağlı mərhələni daha rahat adlamağa zəmin yaradır: “Həmçinin onlayn müsahibə hamı üçün əlçatandır, hər kəs istifadə etdiyi kompüter, mobil telefon və ya digər İKT vasitələri ilə onlayn müsahibəyə qoşula bilir. Bununla bağlı valideynlərin şəxsi kabinetlərində öncədən müvafiq təlimati məlumatlar da yerləşdirilib”.

Ənənəvi müsahibələrin təşkilinə gəlincə, B.Məmmədov mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar ümumi təhsil müəssisələrinin tədris digər dildə aparılan bölmələri üzrə uşaqların I sinfə qəbulu üçün ənənəvi (canlı) müsahibənin keçirilmə vaxtının hələlik bəlli olmadığını deyir: “Ənənəvi (canlı) müsahibəyə yazılan valideynlərə elektron sistemdə seçimlərini dəyişərək onlayn müsahibə formasını seçmək imkanı yaradılıb. Bu baxımdan valideynlərə daha çox onlayn müsahibələrə üstünlük verilməsi tövsiyə edilir. Əslində mütləq əksəriyyət ənənəvi (canlı) müsahibədən imtina edərək, övladının onlayn müsahibədə iştirakını təmin edib. Nəzərə alsaq ki, yaxın günlərdə tədris digər dildə aparılan bölmələri üzrə müsahibələrdə uğur qazanan uşaqların məktəb və müəllim seçiminə start veriləcək, onlayn müsahibənin daha səmərəli olduğunu bir daha görərik. Bu baxımdan vaxtaşırı valideynləri bir daha onlayn müsahibə imkanından yararlanmağa və məktəb seçimində normal qaydada iştirak etməyə səsləyirik. Hamı bilməlidir ki, onlayn müsahibələr mövcud vəziyyətdə ən səmərəli həll yolu kimi vətəndaş məmnuniyyətinə, valideyn və uşaqların rahatlığına və təhlükəsizliyinə xidmət edir”.

### Alternativ qeydiyyat mərkəzlərində yeni iş prinsipi

Onu da qeyd edək ki, mövcud sanitar-epidemioloji vəziyyət sadəcə müsahibələrin təşkilində deyil, elə ümumi təhsil müəssisələrinin I siniflərinə elektron qeydiyyat prosesində də nəzərə alınıb. Belə ki, valideynlərin əlavə vaxt itkisinin qarşısını almağa, növbəliliyi aradan qaldırmağa, mövcud vəziyyətlə əlaqədar müvafiq normaları qorumağa xidmət edən yeniliyə əl atılıb. B.Məmmədov bildirib ki, valideynlərə kömək məqsədilə fəaliyyət göstərən Alternativ qeydiyyat mərkəzlərinin iş prinsipi hələ mart ayından etibarən dəyişdirilib: “Bu dəyişiklikdən sonra özü elektron qeydiyyatdan keçə bilməyən və ya internet resurslarına çıxış imkanı olmayan valideyn və ya qanuni nümayəndələrin Alternativ qeydiyyat mərkəzlərinə gəlməsinə ehtiyac qalmayıb. Elektron qeydiyyatdan keçə bilməyən valideynlər təyin olunmuş “Whatsapp” nömrələr (+994 55 892-27-51, +994 55 892-95-89, +994 55 892-63-90) vasitəsilə müvafiq məlumatları iş günləri ərzində saat 10:00-dan 16:00-dək işçi qrupa təqdim edə bilərlər. İşçi qrup tərəfindən müvafiq məlumatlar əsasında özü elektron qeydiyyatdan keçə bilməyən valideynlərə bu yolla zəruri kömək göstərilir”.

### Elektron xidmətdən istifadə et, koronavirus infeksiyasına qarşı mübarizəyə dəstək ver

Ümumiyyətlə, son illər təhsil sahəsində göstərilən elektron xidmətlərin sırası kifayət qədər genişləndirilib və bu proses səmərəli şəkildə davam etdirilir. Onlayn müsahibələr də valideynləri elektron xidmətlərin fəal istifadəçisinə çevirir və elektron xidmətlərlə bağlı yaradılan imkanlar mövcud şəraitdə ən optimal çıxış yollarından biri kimi özünü göstərir. Üstəlik, onlayn müsahibələrdə iştirak etməklə hər valideyn koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində aparılan qabaqlayıcı tədbirlərə dəstək verir, həm özlərinin, həm də övladlarının həyat və sağlamlığının daha etibarlı qorunmasını təmin edir.

# Bakı məktəblisi yeni sərinləndirici model hazırlayıb

Paytaxt məktəblisi yeni sərinləndirici modeli hazırlayıb. Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 56 nömrəli tam orta məktəbin IV sinif şagirdi David Mahmudovun hazırladığı model stolüstü sərinləndirmə funksiyasını yerinə yetirir.

Modeli hazırlamaq üçün məktəbli ilk olaraq kartondan istifadə edərək sərinləndiricinin pərvanələrini düzəldib. Elektriklə işləyən modelin pərvanələri hər iki istiqamət üzrə hərəkət edə bilir.

Qeyd edək ki, bu, istedadlı məktəblinin hazırladığı ilk cihaz modeli deyil. Bundan öncə də məktəbli müxtəlif əşyalardan istifadə edərək bir sıra fərqli modellər hazırlayıb.



Mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar evdə asudə vaxtından səmərəli istifadə edən məktəblinin yeni cihazların mexanizmini dərindən öyrənərək uğurla tətbiq etməsi onun texnologiya və robototexnikaya olan marağından irəli gəlir.

# Dərsliklərlə bağlı yeniliklər

2020-2021-ci tədris ilinə ölkənin dövlət ümumi təhsil müəssisələrinin I-XI sinifləri üçün 339 adda 7 milyon 233 min 214 nüsxə dərslik və metodik vəsaitin çap edilməsi nəzərdə tutulur.

Ümumi təhsil müəssisələrinin I, V və IX sinif şagirdləri üçün bəzi dərsliklər yenidən tərtib edilib, bəziləri isə təkmilləşdirilib. Həmçinin növbəti tədris ilində birinci siniflər üçün “Azərbaycan dili (tədris dili)” və “Riyaziyyat” fənləri üzrə dərsliklər iki hissəli nəşr ediləcək. Dərsliyin I hissəsi tədris ilinin birinci, II hissəsi isə ikinci yarısını əhatə edəcək.

I siniflər üçün “Musiqi” və “Texnologiya”, V siniflər üçün “Fiziki tərbiyə”, “Rus dili (ikinci xarici dil)” və “İngilis dili (ikinci xarici dil)” dərslikləri ilk dəfədir tərtib edilib. Əvvəllər bu dərsliklər mövcud deyildi və fənnin tədrisi müəllim üçün hazırlanan metodik vəsaitlər vasitəsilə həyata keçirilirdi.

I, V və IX siniflər üçün xarici dil fənni üzrə dərsliklərə müvafiq audio fayllar əlavə edilib. Audio fayllar həmçinin I sinif "Musiqi", V sinif “Azərbaycan dili (dövlət dili)” dərslikləri üçün də hazırlanıb.

Cari ildən etibarən I sinifdə təhsil alanlar üçün hazırlanan bütün dərsliklərin istifadə müddəti də dəyişdirilir. Belə ki, əvvəl bu dərsliklər üçün istifadəyə yararlılıq müddəti dörd tədris ili təyin olunurdusa, bu ildən etibarən bir tədris ili təyin olunacaq. Bu, həm də bəzi tapşırıqların şagirdlər tərəfindən dərslik üzərində həll edilməklə yerinə yetirilməsinə imkan yaradacaq.

Dövlət peşə təhsili müəssisələri üçün ümumilikdə 96 adda 185 699 nüsxə dərsliyin çap edilməsi nəzərdə tutulur.




# Azərbaycan dili dərsliklərinə konseptual yanaşmalar

⇦ Əvvəli səh.1

Başqa sözlə, dərsliklərin hazırlanmasına Azərbaycan dilçilik elminin mühüm problemlərindən biri kimi baxılırdı və çox hallarda da Azərbaycan dili dərsliklərinin hazırlanmasına görkəmli dilçi alimlər cəlb olunur və dərsliyin hazırlanması problemini linqvistik araşdırmaların müstəvisində həll etməyə çalışırdılar. Məsələn, ötən əsrdə uzun illər V-VI, VII-VIII siniflər üçün hazırlanmış Azərbaycan dili dərsliklərində linqvistik anlayışlar, onlar haqqında mətnlər aparıcı yer tutmuşdur. Dərsliklər Azərbaycan dilçilik elminin məntiqi əsasında qurulmuş, bütün addımlar həmin anlayışların mənimsənilməsi istiqamətində təşkil olunacaq fəaliyyətlərə yönəlmişdir.

Bu, doğrudanmı, belə olmalıdır? Şagirdlər Azərbaycan dilçiliyi elminin son uğurları da əhatə edilməklə onu daha fundamental əsasda öyrənməyə istiqamətlənməli və bu iş dilçilik elminin obyekti kimi qiymətləndirilməlidir? Dərsliklərin məzmunu da həmin tendensiyanı şərh və onun mənimsənilməsinin didaktik-metodik əsasını təşkil etməlidir? Yoxsa, Azərbaycan dilinə dair nitq inkişafı məsələləri prioritet olmalı, bütün kursun nəzəri və praktik məsələləri onun reallaşdırılmasına yönəldilməlidir? Beləliklə də, bu cəhət fənnin uğurlarında əsas götürülməlidir?

Bu və buna bənzər məsələlər tək Azərbaycan dili fənni üzrə deyil, digər fənlər üzrə də problem olaraq qalmaqda və sual doğurmaqda davam edir. Araşdırmalar onu göstərir ki, pedaqogikada, xüsusilə onun didaktika (təlim nəzəriyyəsi) hissəsinə aid öyrənilən məsələlərin sırasında dərsliklərə xüsusi önəm verilir, onun tərtibi prinsiplərindən, məzmun və struktur xüsusiyyətlərindən söhbət açılır. Onun ümumpedaqoji məsələlərdən biri olması vurğulanır.

Təbii olaraq, Azərbaycan dilinin tədrisi metodikasında da Azərbaycan dili dərsliklərinin özünəməxsus cəhətləri barədə danışılır. Şagirdlərin bilik, bacarıq, münasibət və səriştələrinin formalaşdırılmasındakı rolu və əhəmiyyətindən bəhs olunur. Belə araşdırmalar xüsusi metodikalara aid araşdırmalar kimi qəbul edilir.

## Dərslik nə üçün lazımdır?

Bu ritorik sual hər bir təhsil işçisini düşündürə bilər. Zamanın mövqeyindən çıxış edərək birmənalı şəkildə cavab veririk ki, dərslik bu günün məktəb təhsilində lazımlı komponentlərdən biridir. Çünki o, ilk olaraq, şagirdlərdə lazımi səriştələri formalaşdırmaq üçün zəruri hesab edilən minimum təlim materiallarını əhatə edir, öyrənilən bilik, bacarıq və vərdişlərə nail olmaq üçün haradan başlamağın və harada dayanmağın vacibliyini göstərir. Bundan əlavə, dərsliklər praktik fəaliyyət üçün istiqamətverici rol oynayır. Çalışma, tapşırıq və müstəqil iş üçün materiallar təqdim edir. Bu məsələyə xüsusilə Azərbaycan dili dərsliklərində başqa formada yanaşılır. Belə ki, təqdim olunan oxu mətnləri ilə əlaqəli çalışmalar sistemi hazırlanaraq uyğun paraqraflarda yerləşdirilir. Şagirdlər mətn üzrə işləməklə yanaşı, çalışmalar üzərində də fəaliyyətlərini davam etdirirlər. Beləliklə, sırf nitq vahidlərindən istifadə edərək müxtəlif əməliyyatları yerinə yetirir, nitq mədəniyyətinin inkişaf etdirilməsində irəliləyişlərə nail olurlar.

Şagirdlərin bu fəaliyyəti təkcə məktəbdə tamamlanmadığından onun evdə davam etdirilməsi zərurəti yaranır. Bu zaman maraqlı tərəf kimi valideynlər də həmin işə qoşulmalı olurlar. Və çox hallarda da dərsliklər haqqında söhbətlər bu mərhələdən qaynaqlanır.

Dəməli, dərsliklər həm də valideyn zümrəsinin nəzər-diqqətini cəlb etməklə başqa resurslardan fərqlənir. O, əlaqələndirici bir rolda şagird, müəllim və valideyn üçbucağının mərkəzində dayanmış olur. Bu isə, əslində, o deməkdir ki, dərslik ən azı maraqlı olan tərəflərin əlaqələnməsində, koordinasiya olunmasında əsas amil kimi çıxış edir.



**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

Əlbəttə, bu, günümüzün proqnozu kimi hazırkı ehtiyac və tələbatlar platformasında özünü göstərsə də, standartlarla işləmək texnologiyası özlüyündə nəticələrin zəruriliyini tələb kimi irəli sürməklə onların aparıcı olmasını sübut edir. Bu nəticələrə gəlmək istiqamətində bütün yanaşmalara variativ mövqedən baxmağı və dəyərləndirməyi əsas tələb kimi irəli sürür. Heç şübhəsiz, bu yanaşmada nə qədər aparıcı rola malik vəsait kimi dərsliyə qiymət verilsə də, onun təlim vasitələrindən biri olmaq funksiyası dəyişmir. Bu funksiya isə onu standart olmaq mövqedən çıxarmaqla variativ xarakterli bir vasitəyə çevirir.

## Azərbaycan dili dərsliyi müasirlik müstəvisində vasitəyə çevrildi

Yuxarıda irəli sürülmüş fikrin davamı olaraq nəzərə alınmalıdır ki, dərsliyin dəyişməz məzmun komponenti olması onun daha ciddi yanaşma tərzi kimi qəbul edilməsi barədə oturuşmuş ənənəvi fikri yumşaldır. Müasir zamanda ona yaradıcı mövqedən yanaşılmasını irəli sürür.

Doğrudanmı, Azərbaycan dili dərslikləri bu günün metodik mülahizələrində yeni keyfiyyət qazanıb? Azərbaycan dili təliminin vasitəsinə çevrilib?

Belə bir müddəanın meydana gəlməsi haradan qaynaqlanır? Hansı şərtlər, amillər belə bir fikrə gəlməyə imkan verir?

Bu gün daha çox haqqında danışılan təhsil məsələlərindən biri dərslikdir. Və etiraf etmək lazımdır ki, dərsliklərin içərisində daha çox diqqəti cəlb edən dərsliklərdən biri Azərbaycan dilidir. Bu, ilk növbədə, ondan irəli gəlir ki, əvvəla, Azərbaycan dili ana dili kimi hər kəsin həyatında, məişətində işlənməklə daha çox ictimai xarakter daşıyır və bununla da maraq obyektinə çevrilir. Daha sadə şəkildə demiş olsaq, insanların istifadə etdiyi mənəvi varlıq kimi onları düşündürməyə başlayır. Hər kəs az qala özünün subyektiv münasibətlərini belə daha geniş sosial kontekstdə təqdim etməyə meyl göstərir. İndiki zamanda bəzi valideynlər özlərinin şagird dövründən qalmış stereotiplərinə qapılaraq müasir yanaşmaları şübhə və tərəddüdlə qarşılayırlar. İkinci, Azərbaycan dili fənninin müasir fəlsəfəsi aydın təsəvvür olunmadığından hələ də onu daha çox anlayışlar, qanun və nəzəri ümumiləşdirmələrdən ibarət bir sistemlə tədris etməyə səy göstərirlər. Bir praktik fənn olaraq Azərbaycan dilini nitq mədəniyyətini formalaşdıran bir vasitə kimi birmənalı şəkildə qəbul etmirlər. Ənənəvi təcrübələrə istinad etməklə daha çox linqvistik anlayışların mənimsənilməsinə üstünlük verirlər. Bu, həm yeni məzmunun hazırlanmasında, həm də onun reallaşdırılmasında aydın şəkildə hiss edilməkdədir. Hətta Azərbaycan dili təliminin praktik olaraq öyrədilməsi işi barədə danışan bəzi mütəxəssislər belə konkret fəaliyyətə gəldikdə yenə də Azərbaycan dilçiliyinin anlayışlarına daha çox yer ayırmaqla özlərinin fikirlərini təkzib etmiş olurlar.

## Azərbaycan dili dərsliyi hansı informasiya yükünü daşıyır?

Hər bir dərslik bütün xüsusiyyətləri ilə birgə həm də informativ xarakter daşıyır. Özünün informasiya yükü ilə fərqlənir. Bu informasiya yükü, demək olar ki, həmişə dərslik üzərində işləyənləri düşündürməli olub. Onların dərslik barəsindəki düşüncələrinin mərkəzində dayanıb. Bəs, onda bu düşüncələrin nəticəsi necə yekunlaşıb? Elm sahələrində hələ kifayət qədər geniş və dərin araşdırmaların olmadığı zamanlarda, eləcə də tədqiqatların kitablar formasında nəşrinin geniş yayılmadığı dövrlərdə dərsliklər bu missiyanı daşımalı olub. Elmlə, təhsillə məşğul olan insanlar özlərinin elmi baxışlarını maarifçiliklə birləşdiriblər. Başqa sözlə, elmi araşdırmalarını dərsliklərdə ümumiləşdirməyə çalışıblar. Bu tendensiya hələ ilk dərsliklərin yaradılması zamanı özünü göstərib. Məsələn, tarix, ədəbiyyat, riyaziyyat, eləcə də ümumtəhsil məktəbləri üçün hazırlanmış digər dərsliklər bu baxımdan nümunə ola bilər. 50 ilə yaxın bir müddətdə ümumtəhsil məktəblərinin VII-VIII (sonralar VIII-IX) sinifləri üçün M.Şirəliyevin və M.Hüseynzadənin yazdığı Azərbaycan dili dərsliyi həm də Azərbaycan dilinin sintaksisinə dair mötəbər bir əsər hesab edilmişdir. Çünki orada öz əksini tapan elmi ümumiləşdirmələr sadəcə öyrənmək üçün təlim materialı deyil, həm də Azərbaycan dilinin sadə və mürəkkəb cümlə sintaksisinə dair ciddi bir araşdırma kimi qəbul olunmuşdur. Ona görə də bu kitab uzun müddət məktəbdə bir dərslik kimi öz statusunu saxlamaqla yanaşı, həm də dilçiliyə dair mötəbər bir mənbə kimi nüfuz qazanmışdır. Sintaksisə dair sonradan meydana çıxan tədqiqatların istinad yerinə çevrilmişdir. Belə dərsliklərdə, təbii olaraq təlim materiallarının elmiliyi, əhatəliliyi daha çox diqqət mərkəzində saxlanılmışdır. Həm də ilkin olaraq qələmə alındığından onun əhatəliliyi xüsusi önəm daşımışdır. Məzmunun konkret və aydın olması, nümunələrlə əsaslandırılması zəruri hesab edilmişdir. Azərbaycan dili dərsliklərində təqdim olunan çalışma və tapşırıqlar linqvistik anlayışların mənimsənilməsi məqsədi ilə verilmişdir. Lakin sonralar XX əsrin 70-ci illərindən etibarən Azərbaycan dilinin tədrisində başlıca məqsəd kimi nitq inkişafının qarşıya qoyulması dərslikdəki təlim materiallarının müəyyən olunmasına münasibətin dəyişilməsi ilə nəticələnmişdir. Artıq dərsliyin sistemində rabitəli nitq çalışmalarının artırılmasına üstünlük verilmiş, bütün fonetik, leksik, qrammatik çalışmaların tərtib olunmasında nitqin inkişaf etdirilməsinə töhfə verilməsi əsas məqsədə çevrilmişdir. Bundan əlavə, Azərbaycan dili dərsliklərinin tərtib olunmasında induktiv yoldan istifadə edilməsi, bununla şagirdlərin ümumiləşdirmələr aparmağa sövq olunması yeni yanaşma kimi dəstəklənmişdir. Artıq bu mərhələdə təlim materiallarının daha geniş deyil, nitq inkişafında rolu baxımından seçildiyi müşahidə olunurdu. Bununla da, Azərbaycan dili dərslikləri üçün təlim materiallarının zəruriliyinin və konkretliyinin nəzərə alındığı aydın görünürdü.

Araşdırmalar onu göstərir ki, müasir Azərbaycan dili dərsliklərində təlim materiallarının seçilməsinə verilən tələblər daha da ciddiləşmişdir. Dilin mətn kontekstində öyrədilməsi nitq inkişafı üçün bütün nəzəri və praktik materiallara zərurilik baxımından yanaşılmasını meydana çıxarmışdır. Bununla nitq əhəmiyyəti olmayan dil materialları islah olunaraq təlim müstəvisindən çıxarılmışdır. Nəticədə şagird üçün yorğunluq gətirməyən, onun təlim marağına səbəb ola bilən linqvistik və ekstralinqvistik materialların sintezindən ibarət lakonik bir təlim (öyrənmə) müstəvisi yaranmışdır. Bu günün Azərbaycan dili dərsliyində informasiya yükünün çoxluğu, genişliyi deyil, onun nitq inkişafı, nitq mədəniyyəti üçün nə dərəcədə faydalı olması əhəmiyyət daşıyır.

## Dərsliyin yaradılması pedaqoji hadisədir

## Azərbaycan dili dərsliyinin sistemləşdirmə funksiyasının sirləri

Təfəkkür fəaliyyətinin növlərindən biri də sistemləşdirmədir. Şagirdlər bu bacarığa yiyələnməklə bir sıra təlim tapşırıqlarını elmi əsasda yerinə yetirmək üçün imkanlar əldə etmiş olurlar. Yerinə yetirdikləri fəaliyyətlərinin ümumi ahəngində ardıcıllığı gözləyir, mükəmməl bir məntiqlə davamlılığı təmin edirlər.

Şagirdlərdə sistemləşdirmə bacarığının formalaşdırılması müasir təlim prosesinin əsas vəzifələrindən biri hesab edilir və müəllim fəaliyyətində istiqamətləndirilən məsələ kimi dəyərləndirilir. Bu vəzifə həm də təlim vasitələrinin, o cümlədən dərsliklərin də üzərinə məsuliyyət qoyur. Bu mənada sistemləşdirmə Azərbaycan dili dərsliklərinin funksiyalarından biri hesab edilir.

Müasir Azərbaycan dili dərslikləri başlıca olaraq nitq mədəniyyətinin formalaşdırılması missiyasını daşıdığından onun məzmununa daxil edilən təlim materialları istər nitq fəaliyyətinin növləri üzrə, istərsə də dil qaydalarına aid müvafiq məntiqi ardıcıllığa tabe olur. Dərslik konkret mənada bu ardıcıllığın axarında formalaşaraq sadədən mürəkkəbə prinsipinin əsasında qurulur.

## Azərbaycan dili dərsliyinin vətəndaşlıq mövqeyi

Azərbaycan dili dərsliyinin mühüm xüsusiyyətlərindən biri də onun tam mənasında Azərbaycan dilinin məna və mahiyyətini, özünəməxsus gözəlliyini ifadə edə bilməkdir. İstər dil, istər üslub baxımından zəngin bir nümunə kimi effektə malik olmaqdır. Müasir zamanda dərslik üçün belə bir cəhətin olması onu başqalarından fərqləndirməklə şagirdlərin diqqətinə daha çox yaxınlaşdırır. Şagirdlər belə nümunələr üzərində işlədikcə Azərbaycan dilinin özünəməxsusluğuna valeh olur, ona daha çox vaxt ayırmaqla məhəbbət hissi bəsləməyə başlayırlar.

Müasir dövrdə Azərbaycan dilini müəyyən kontekstdə öyrətmək onun bütün imkanlarının meydana çıxmasına şərait yaradır. Bu effektin formalaşmasında müxtəlif janrlarda olan mətnlər xüsusi rol oynayır.

Məktəb təcrübəsi göstərir ki, şagirdlər fəaliyyətə oxu mətnləri üzərində işləbaşlayırlar. Cümlə və mətnləri oxumaqla onların üzərində müşahidələr aparırlar.

Həmin mətnlər ilkin olaraq tematik zənginliyi, üslub və janr müxtəlifliyi ilə maraq doğurur. Şagirdlərin diqqətini yeknəsəklikdən qoruyur və onların öyrənmə fəaliyyətini stimullaşdırırlar.

## Azərbaycan dili dərsliyində nələr transformasiya olunur

Hər hansı bir dərsliyin əsas vəzifələrindən biri aid olduğu elm və ya elmlərə dair məsələləri transformasiya etməkdir. Ümumtəhsil dərsliklərindən biri kimi Azərbaycan dili dərsliyi də belə bir xüsusiyyətə malikdir. Əslində bu cəhət onun Azərbaycan dili fənninin tədrisində bir vasitə rolunda çıxış etməsindən irəli gəlir. Bəs onda transformasiya olunan nələrdir?

Azərbaycan dili, ilk növbədə, Azərbaycan xalqının milli dili, mədəniyyəti kimi bu fənnə aid dərslikdə təmsil olunur. Şagirdlər üzərində çalışdıqları təlim materialları ilə tanış olduqca, onları öyrəndikcə dərsliyin dil və üslubuna bələdliyi artır. Həmçinin dərslik öz potensial imkanları ilə şagirdlərə təsir göstərir. Daha konkret demiş olsaq, dərslik təlim prosesində zəngin bir mənəviyyatı, dil gülcəsini şagirdlərə transformasiya edir. Şagirdlər Azərbaycan dilinin hər bir üslubuna aid nümunələrlə qarşılaşır, onların özünəməxsus cəhətləri ilə yaxından tanış olurlar. Bu prosesdə həm də şagirdlərin lüğət ehtiyatının zənginləşməsi, nitq qabiliyyətinin inkişaf etməsi özünü göstərir. Bu inkişaf tədricən şəxsiyyətin mühüm atributlarından olan nitq mədəniyyətinə çevrilir.

Azərbaycan dili dərsliklərində müxtəlif üslublarda verilən mətnlər öz növbələrində bir dil, nitq daşıyıcısı olmaqdan əlavə, eyni zamanda müəyyən əxlaqi, mənəvi keyfiyyətləri transformasiya edən vasitə kimi də çıxış edir. Onlar şagirdlərdə yüksək insani keyfiyyətlərin formalaşmasına təsir göstərir.

Dərsliklər həm də zəngin çalışmalar sistemi ilə şagirdlərin ümumi inkişafına təsir göstərir, onların məntiqinin formalaşmasında əhəmiyyətli rol oynayır. Şagirdlər hər bir nitq, dil vahidi üzərində təhlil-tərkib işləri apardıqca öyrəndikləri nümunələrin mahiyyətinə daha yaxından bələd olur.

Azərbaycan dili dərslikləri məzmununda həm də zəruri dil, dilçilik elementlərini ehtiva edir. Belə ki, Azərbaycan dilinin öyrənilməsində açar rolunu oynayan qrammatika, eləcə də orfoepiya, orfoqrafiya və digər dil qaydalarının ötürülməsinə, dili öyrənənlərə təqdim olunmasına imkan yaradır. Onların praktik olaraq mənimsənilməsini təmin edir.

Əslində təlim zamanı dərsliyin transformasiya xarakteri müəllim tərəfindən aydın təsəvvür olunmalı və tədris prosesində ondan düzgün istifadə edilməlidir. Müşahidələr göstərir ki, qabaqcıl təcrübəyə malik müəllimlər dərsliyin bu cəhətini əvvəlcədən öyrənməklə hazırlıq işi aparır və bir müəllim olaraq özünün qüvvə və imkanlarını dərsliyin transformasiya xarakteri ilə uyğunlaşdırırlar. O zaman bacarıq və vərdişlərin əsasını təşkil edən baza biliklərinin daha sürətlə və möhkəm mənimsənilməsi baş verir. Bundan əlavə, mənimsənilmiş biliklər möhkəmlənir, özlərinin funksional xüsusiyyətləri ilə nitqdə davamlı yer tutur. Bununla da Azərbaycan dili dərsliyi bir vasitə kimi həm də öz xidmət mövqeyində çıxış etmiş olur.

## Dərsliyin şəxsiyyətyönlü, yaxud bilikyönlü olması

Dərsliyin əsas xüsusiyyətlərindən biri onun şəxsiyyətyönlü, yaxud bilikyönlü olmasıdır. Bu iki cəhətdən birinin nəzərə alınması dərsliyin hazırlanmasında çox mühüm hesab edilən zəruri metodoloji tələb kimi dəyərləndirilir.

Əgər dərslik şagirdyönümlü təlim üçün nəzərdə tutulubsa, o zaman onun quruluşu və məzmunu hər bir şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınmasını təmin edə bilən bir formada təqdim olunacaq, dərsliyin əsas elementlərindən, o cümlədən mövzulardan, onlarla bağlı anlayışlarlardan ibarət olan, şagirdlərin məntiqinə uyğun bir sistem qurulacaqdır. Hər bir şagird özünün fəaliyyət istiqamətlərinə dəstək ola biləcək parametrləri orada tapa biləcəkdir. Bundan əlavə, özünün şəxsi inkişafını dəstəkləyən təlim materiallarından, o cümlədən çalışma və tapşırıqlardan, eləcə də digər yardımçı vasitələrdən həvəslə istifadə edəcəkdir.

Əgər dərslik bilikyönümlüdürsə, onun əsasını elmin məntiqi və müvafiq fəaliyyət metodları ilə qurulan mövzularla bağlı məlumatlar təşkil edəcəkdir. O zaman müxtəlif şagird maraqlarının vahid məntiqdə birləşdirilməsi, istiqamətləndirilməsi zərurəti yaranacaqdır. Təbii olaraq şagirdlərin fərdi maraq və meyllərinin nəzərə alınmasında çətinlik meydana çıxacaqdır. Bu da nəticə etibarı ilə dərsliyin şagirdyönümlü öyrənmə modeli olmasına mənfi təsir göstərəcəkdir.

Dərslik didaktik vasitə kimi nə qədər ümumi xarakter daşısa da, o qədər şagird marağını təmin edə biləcək bir dərs kitabıdır. Ondan istifadə edən hər kəs, ilk növbədə, oradakı mətnlərin məzmununda, ifadə olunan cümlələrin mənasında, eləcə də söz, şəkil və digər təlim materiallarında özünün marağını, düşüncə səviyyəsini, dünyagörüşünü, digər xüsusiyyətlərini axtarır. Axtardığını tapdığı anda ona adaptasiya olunur və fəaliyyətə başlayır. Verilən tapşırıqları həvəslə və məhsuldar tərzdə yerinə yetirir.

Belə olduqda şagird həmçinin dərsliyin didaktik sisteminə daxil ola və yaradıcı istifadəçisinə çevrilə bilir.

Ümumtəhsil məktəbləri üçün müasir Azərbaycan dili dərsliklərinin bu baxımdan xarakterində yeniliklər müşahidə olunur. Ən böyük nitq vahidi kimi mətnlər üzərində müxtəlif istiqamətli fəaliyyətlərin təşkili bu müxtəlifliyin mahiyyətini təşkil edir. Belə ki, şagirdlər mətnin üzərində, eləcə də mətnlə bağlı çalışmaların həllində özlərinin məntiqi, tənqidi və yaradıcı işlərini qurmalı olurlar. Axtarışlar aparmaqla diqqəti cəlb edirlər.

## Azərbaycan dili dərsliyinin perspektivləri: kreativ bacarıqlara doğru

Artıq on bir ildən çox bir vaxt keçir. Və bu müddətdə yeni fənn kurikulumları əsasında dərsliklər hazırlanaraq tətbiq edilir. Bütün ümumtəhsil fənləri kimi "Azərbaycan dili" üzrə də yeni dərsliklərin hazırlanması istiqamətində iş aparılır. Məlum olduğu kimi, yeni fənn proqramları (kurikulumları) əsasında hazırlanan ümumtəhsil məktəbləri üçün dərsliklərin ilk nəsli məktəblərimizdə tətbiq edilir. İlkin qənaətlər onu göstərir ki, bu dərsliklər özünün fəlsəfəsinə, metodoloji xüsusiyyətlərinə, məzmun və strukturuna görə əvvəlkilərdən fərqlənir.

Başlıca olaraq şagirdlərin inkişafına yönələn bu dərsliklərdə onların idraki bacarıqlarını formalaşdırmaq, həyati vərdişlərini zənginləşdirmək, intellektual potensialına dəstək olmaq ön planda dayanır. Hər şeydən öncə, şagird şəxsiyyətində məntiqi, tənqidi, yaradıcı təfəkkürə söykənən kreativliyin formalaşdırılması prioritet istiqamət təşkil edir.

Dərsliklər ən zəruri bilikləri, onların əsasında gələcək həyat üçün vacib olan səriştələrin formalaşmasına imkan yaradan fəaliyyət sistemini təqdim etməklə şagirdləri yaradıcı tətbiqetməyə istiqamətləndirir. Öyrəndikləri əsasında yeni biliklərin yaradılmasına təşviq edir.

Kreativliyə doğru addımlardan ibarət olan bu yanaşma, heç şübhəsiz, intellektual dərsliklərə aparan bir yoldur. Azərbaycan dili dərsliklərinin ümumi sistemində ən zəruri elmi-nəzəri anlayışlar hesabına onun linqvistik əsaslarını normallaşdırmaq, həyati bacarıqlara söykənən səriştələrə geniş yer ayırmaqla praktik əhəmiyyətliliyini artırmaq onun gələcək perspektivlərinin mühüm parametrlərini təşkil edir.

# Daşlaşan həqiqətin poeziyası

Poeziya, insanın daxili dünyasının pəncərəsindən həyata baxışıdır və Mahirə Nağıqızının poeziyasında əks olunan həmin dünya rəngarəngliyi ilə o qədər kaloritlidir ki, buna heyrətlənməyə bilmirsən, möhtəşəm həqiqətlərin, əslində, sadə, çox sadə konstruksiyasının yaratdığı təəccüblə baş-başa qalırsan. Heyrətin yaratdığı assosiasiya ilə insanın dünyanı dərk etdiyi andan baş qaldıran sualların cavabını tamam özgə formada və məzmunda alır, özün də bilmədən təhtəlşüurun diqtə etdiyi həqiqətlərin təqdimatındakı mənzərənin tərkib hissəsinə çevrilirsən. Bu, Mahirə Nağıqızının daşlaşan həqiqətlər barədə “Onun daş nağılı”nın məndə yaratdığı təəssürat oldu.

## Professor Mahirə Nağıqızının “Onun daş nağılı” kitabı haqqında təəssüratlar

Mahirə Nağıqızının son şeirlər kitabı, “Ruhuna beşiksə, tanı, Vətəndir” məndə bu duyğuları yaratmışdı. Hisslərin intellektual təqdimatı ilə ümumiləşdirilən mövzu yanaşmaları, etiraf edim ki, məni əvvəl-əvvəl təəccübləndirdi: Azərbaycan poeziyasında az-az rastlaşdığımız deyim tərzi, fikrin ifadəsi və ifadə edilən o fikirlərdəki yükün alt qatlarından boylanan mənaların cazibəsi ilə baş-başa qalmışdım. Onun şeirlərinin mövzu müxtəlifliyi və bu mövzu arealının genişliyi, təkcə Mahirə Nağıqızını deyil, yüz min illərdir bütün insanlığı narahat edən sualların özünəməxsusluğu, inandırıcı cavabların hər birinin məna yükü oxucusunu özünə çəkir. “O boyda böyük olmayan” dünyanın əbədiyyət kimi görünən problemlərinin, əslində, nəfs ilə yararlanaraq böyüdüyünü ifadə edən, insanı Nəfsin quduzlaşmış nəfəsinə tərəf çəkən Cəhalətin qara kölgəsinin siluetləri xanım Nağıqızının “Daş” şeirində nə qədər aydın görünür...:

*...Beləcə atıldı hirslə, qəzəblə,*
*Cənnət kandarından o ah daşları.*
*Nadan elə bildi, kinlə, qərəzlə,*
*Eləmək mümkündü silah daşları.*

Mahirə Nağıqızının işığına can atdığı Həqiqəti belə deyir və bu deyilənlər bəşəriyyətin, əslində, min illərdir nadanlığın girovuna çevrildiyini, dünyanın taleyini axan qanlar, göllənən göz yaşları içərisində belə, bəşər ədəbiyyatının daimi mövzularından olan Xeyir və Şərin mübarizəsindən asılı qaldığını göstərir. Lakin daş dövrlərindən başlayan, daş təsəvvürləri ilə düzələn daş silahlarla Həqiqəti daşa basan Yalanın cəhd etdiyi, çalışdığı, məram və məqsədi üçün axıtdığı qanlar belə, onu nail olmaq istədiyi son nəticəyə çatdırmaqda acizdir. Bu, xanım Nağıqızının daşlaşmış qənaətidir. Həmin qənaətin mayasında isə şairin gəldiyi nəticənin sadə həqiqətləri dayanır:

*Atılan daşlardan yollar çəkdilər,*
*Kimsə o yolları baş edəmmədi.*
*Dünyanı daş kimi ağır edənlər*
*İnsanın qəlbini daş edəmmədi.*

Ümumiyyətlə, Mahirə xanımın müraciət etdiyi bütün mövzularda onun daşlaşmış baxışlarının daş həqiqətlərində yaranan poeziya o qədər çəkici və ecazkar mənzərələr yaradır ki, oxucu onun dünyasının sadəcə müsafiri olmur; bu dünyanın yaranmasında şairin özü qədər yaxından iştirak edir, hər bir detalın yerli- yerində durmasının fərqində olur. Kitabın leytmotivini müəyyənləşdirəcək qədər ağırlıqda olan “Vətəndir” şeirinin hər bir misrası Vətən obrazının cizgilərinin ifadəsi olan canlı ştrixdir və həmin ştrixlərin can verdiyi portreti nəinki görür, hətta bu portretlə danışa bilirsən:

*Bu vətən deyilən torpaq deyil ki,*
*Ananın dizinin yanı-vətəndir.*
*Başını qoymağa bir sinə varsa,*
*Ruhuna beşiksə, tanı, vətəndir.*

Vətən haqqında Azərbaycan şeirində çox yazılıb, onu ən müxtəlif ifadə vasitələri ilə təqdim ediblər və bu barədə yeni söz, yeni təqdimat imkanları sanki tükənib, lakin xanım Mahirə Nağıqızının şeirin ilk bəndindəcə insan qəlbinin duyğularının sərhədsizliyi kimi, həmin duyğuları ifadə edən fikirlərin də geniş arealı oxucu üçün söz imkanlarının hüdudsuzluğu barədə qənaəti möhkəmləndirir. Fikrimizi əsaslandırmaq üçün onun şeirlərindən birini “Qara torpaq”ı nümunə kimi göstərmək yerinə düşər:

*Layla-layla böyüt bizi,*
*Beşiyimiz qara torpaq.*
*Göz açıban gördük səni,*
*Ev- eşiyimiz qara torpaq.*

Etiraf edək ki, ifadə tərzinin özü kimi, fikir orijinaldır, deyim sərrastdır və bütün bunlar xanım Mahirə Nağıqızının istisnasız olaraq şeir yaradıcılığının özünəməxsus başlıca keyfiyyətlərindən biri olaraq diqqəti cəlb edir. Hesab etmək olar ki, həmin keyfiyyəti şərtləndirən başlıca faktor olaraq onun demək, çatdırmaq istədiyi fikrin aydınlığını göstərmək olar. Bu aydınlığın işığında isə xanım şairəmizin lirik “Mən”i o qədər yaxın məsafədə dayanır ki, onun pıçıltı ilə dediyi sözlərə qoşulur, keçib gəldiyi, lakin gəldiyi yerlərdə qalmış, yağışın və qarın yuya, silə bilməyəcəyi ayaq izləri ilə gedəcəksiniz.Həmin ayaq izləri oxucusunu “dərdin işığında” öz bəxtəvərliyini görən, unudulmaz sevgi hissləri ilə yaşayan, “Dərdləri sən mənə vermişdin deyə, Doğma balam kimi bəsləmişəm mən”- deyən o lirik “Mən”-in daxili dünyasınacan aparacaq. “Gizlədim” şeirini isə ancaq şairin yaradıcılığında deyil, müasir Azərbaycan poeziyasının ən uğurlu nümunələrindən biri kimi qəbul ediləcəyinə, qətiyyən, şübhəniz olmasın:



**Möhsün NAĞISOY,**
*AMEA -nın müxbir üzvü,*
*AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru*

*İllər yük yeriydi, yük dolabıydı,*
*Sənsiz bilmədim ki, hara düşəm mən.*
*Dərdləri sən mənə vermişdin deyə,*
*Doğma balam kimi bəsləmişəm mən.*

Birmənalı olaraq Mahirə Nağızının yaradıcılığına məxsus morfoloji- leksik strukturun və həmin strukturu daha canlı edən semantikanın yaratdığı hansısa bir abidə ilə üzbəüz qalacağınıza şübhə etmədən xatırlatmaq yerinə düşər ki, bumbuz soyuqluğu ilə həmin abidə sizin hər birinizin içində qəribə istilik yaradacaq. Bu, saf bir məhəbbətin yaradacağı və heç zaman qəlbinizi tərk etməyəcək bir duyğudur. Şairənin lirik “Mən”i isə klassik sevgiyə dönmək, məhəbbətin güc mənbəyinə çevrilməyin bir nümunəsi olaraq yaddaşınıza əbədi həkk olunacaq. Bu, həmin sevginin abidəsidir:

*Kəbəni dolandım, Məkkəni gəzdim.*
*Haqqın işığında özümü görəm.*
*Mən belə bilməzdim, belə bilməzdim,*
*Allahım, dərdinlə bəxtəvərəm mən.*

Mahirə Nağıqızının yaradıcılığının xarakterik cəhətlərdən biri, bəlkə də ən birincisi, onun şeir yaradıcılığının poeziyamızın yaşarı ənənələrinə sıx bağlılığıdır. Bu bağlılıqda həyat və onun gerçəkliyinin inikası çox aydın ifadə olunur. Ümumilikdə isə Mahirə xanımın zəngin və rəngarəng poetik dilinin linqvopoetikası, poetik sintaksisi, üslubi frazeologiyası, onomastik vahidləri təkrarsız bir şəkildə, yaradıcılıq axtarışlarının nəticəsi olan formada aşkarlandığından cəlbedicidir, lirizmi, musiqililiyi ilə seçilir, fərqlənir. Və qeyd edək ki, bütün bu “seçilmələr”dən yaranan fərqlər onun şeirlərini daha canlı, canlı olduğu qədər də oxucusu üçün doğma edir. Bütün bunları onun indiyə qədər nəşr etdirdiyi kitablarındakı bütün əsərlərin tematikasında müşahidə etmək mümkündür: həyat, dünya, ömürgün, mənəvi-əxlaqi mənzərə, qayğılarımız və problemlərimizə vətəndaş baxışı, 30 ildir ki, bütöv bir millətin sürüklənərək zorla cəlb edildiyi müharibə və həmin müharibənin aktual etdiyi mövzular. Mahirə Nağıqızı qeyd edilən mövzuların hər birinə münasibətində orijinaldır və o orijinallığı şərtləndirən spesifik yanaşmalar onun oxucusunda qaldırılan məsələlərin yanından ötəri keçib getmək yox, düşünmək hissi oyadır. Onun dövlət müstəqilliyimizin elan edildiyi zamana qədər hər bir azərbaycanlının həsrətində olduğu, son 30 ildir ki, qürur və ehtiram mənbəyinə çevrilən bayrağımıza həsr olunmuş şeiri, “Al Bayrağım” bu cəhətdən həm də uğurlu bir sənət əsəri, parlaq poetik nümunələrdən biri kimi təqdim edilməyə layiqdir.

Mahirə xanım Bayrağa üz tutaraq “Yaşamaq haqqımızın əbədi rəmzisən bir”- deyir, dünyanın harasında olmasından asılı olmayaraq hər bir azərbaycanlının Ona güvəndiyini yada salır:

*Qılıncında Babəkin, Nizaminin şeirində,*
*Yaşadın susmayacaq vətən nəğmələrində.*
*Qarşında baş əyən var dünyanın*
*hər yerində,*
*Oğulun var, qızın var,var, bayrağım,*
*dalğalan!*

Bu müşahidə etdiyimiz poetik cəhətlər, professor, ədəbiyyat tənqidçisi Qurban Bayramovun təbirincə desək, bəzən heyrətləndirici gözlənilməz bənzətmələr, təşbihlər, obrazlar, alliterasiyalar, səs və söz duyumu Mahirə Nağıqızının şeirlərində onun müasir həyatdan, yaşadığımız bu dünyadan, əlbəttə, ilk növbədə, Azərbaycan gerçəkliyindən aldığı lirik təəssüratlar, duyğu və düşüncələr axarında öz əksini tapır. Şairin, ilk baxışda, fərdi görünən problemləri belə, böyük ustalıqla ümumiləşdirmək bacarığını yüksək qiymətləndirən professor yazır: “Onun təfəkkür palitrası yetərincə polifunksionaldır. O, həyatda, cəmiyyətdə, təbiətdə, insan münasibətlərində baş verən, görə bildiyi hadisələrə biganə qalmır, bu günün həqiqətlərini qələmə alır, hətta keçmişdən, tarixdən yazanda da bu gün, çağdaş dünyamız onun şeirlərinin başlıca leytmotivinə çevrilir, insan ömrünün bitib-tükənməyən arzuları və bu ömrün sevincli-kədərli nəyi varsa şairin şeirlərinin mövzusu olur, özünəməxsus yeni poetik biçimdə misra-misra, bənd-bənd biçimlənir”. Bu biçimlərdə o, artıq yaddaşımızın əbədi yol yoldaşına çevrilmiş, ruhumuzun bir parçasına dönmüş, ehkamlaşmış yanlış təsəvvür və baxışları dəyişməyə cəhd edir. Mahirə xanımın bu cəhdi belə, o qədər səmimi və zərifdir ki, üz tutduğu hər kəsi inandırır. Bunun üçünsə qışqırmaqfilan lazım gəlmir, sadəcə olaraq təqdim edəcəyi fikrin poetikləşmiş həqiqətlərini bədii ifadə vasitələrinin gücündən istifadə edərək söyləmək bəs edər. O da elə, beləcə edir, “Kərəmi” şeirindəki kimi:

*Yüz illərdi ruhumuzla yol gəlir,*
*Nakam eşqə başdaşıdı “Kərəmi”.*
*Qoşulubdu karvanına kədərin,*
*Yorulmadı, qəm daşıdı “Kərəmi”*

Bu, Mahirə xanımın Azərbaycan məhəbbət dastanları arasında orijinallığı ilə seçilən, xalq ədəbiyyatımızın unikal nümunələrindən sayılan”Əsli və Kərəm” dastanının ruhunu ifadə edən el havasına baxışıdır. Tədqiqatçıların rəyinə görə, XVI əsrin əvvəllərində yaranmış və həmin əsrdə də formalaşmağa başlamış “Əsli və Kərəm” dastanı 500 il ərzində nəinki Azərbaycan, eləcə də Orta Asiya, Kiçik Asiya və Yaxın Şərqdə məhəbbət simvoluna çevrilmişdir. Dastanın baş qəhrəmanının çəkdiyi iztirab və əzabların içində belə, son məqamına qədər dünyanın ədalətinə inanan Kərəmin “Dilqəmi” kökündə ifadə olunan hisslərini oxucusuna yaşadan, “Yanıq Kərəmi” içindəki işığı axtararaq tapan şairin müasirlərinə, ondan sonra gələnlərə çağırışı isə, sadəcə, söz demək deyil:

*O, vüsalsız məhəbbətin nərəsi,*
*Ancaq Tanrı mərhəməti çarəsi.*
*Qərarlaşıb “Dilqəmi”də pərdəsi,*
*Bu dünyaynan savaşıdı “Kərəmi”.*

Mahirə xanımın baş vurduğu və bəzən lirik “Mən”inin içində gəzdirdiyi Dərd belə ümid işığından xali deyil, burada “İniltinin özündə olan ümid” “təsəllinin yol yoldaşıdır”na çevrilir və Xeyirin Şər üzərindəki mütləq qələbəsinin labüdlüyünü şərtləndirir.

Göründüyü kimi, Mahirə Nağıqızı ənənəvi mövzularda belə, fərqli düşüncə tərzini ortaya qoymaqla, hiss və intellektin sintezindən yaranan unikal poeziya nümunələri yarada bilir və nəticədə onun şeirlərindəki poetik fikir qeyri-adi çalarlarıyla meydana çıxır. O, belə mövzularda bizim adət etdiyimiz düşüncə sistemini, duyum tərzini rahatca dəyişib, fikirlərini, duyğularını fərqli şəkildə, amma, yenə də ənənəvi qiyafədə təqdim edir. Belə nümunələrdən birini, yeri gəlmişkən, gənc muğam ustalarımızdan olan Elnur Zeynalovun ifasında minlərlə insanın ürəyinə yol taparaq sevilə- sevilə dinlənilən “Sən olaydın” gəraylısını göstərmək istərdik. İlk baxışda, gəraylı janrında yazılmış minlər, on minlərlə şeirlərin mövcudluğu içində oxucunu heyrətləndirən, onu, sözün birbaşa mənasında öz sehrinə salacaq hansısa bir nümunəni görmək ağla gəlməyən məqamda belə bir şeirin uzaqlardan əsib də gələn, ruhu oxşayan meh effekti yaratmağının özü fenomen hadisədir. Mahirə xanım bu hadisəni o qədər təbii effektlərlə zənginləşdirib təqdim edir ki, oxucu şairin lirik “Mən”inin arzularına qoşularaq ona yoldaş olur:

*Ah, olaydım eşq sultanı,*
*Yar, fərmanım sən olaydın.*
*Dərd alaydı şirin canı,*
*Tək dərmanım sən olaydın.*

Mahirə Nağıqızı şeirlərinin, demək olar ki, hər biri portret və ya peyzajlardan ibarət nəfis rəsm əsəridir: təqdim edilən həmin əsərlərdə isə mövzu o qədər detallı təqdim olunur ki, bəzən detalların kompozisiyası oxucunu heyrətləndirir. Onun şeirlərindəki obrazlar sistemi, yanaşmalarındakı təzadlar bəzən Azərbaycan poeziyasındakı ənənəvi standartların az qala daşlaşmış çərçivələrini aşır və hesab edirik ki, bu özünəməxsusluğun içində müəllifin cəlbedici üslubu həmin şeirlərin ancaq oxunaqlı olmasına yardım etmir, məntiqi vurğulardan yararlanaraq onun məna yükünü artırır, oxucunun yaddaşına həkk edir. İstər məhəbbət, ya da təbiət şeirləri, yaxud Vətən və Anaya həsr olunan poeziya nümunələri, fərqi yoxdur, hansı mövzuda olursa-olsun, o, oxucu üçün mənalı həmsöhbətə çevrilə bilər. “İlisuda yaz” şeirində olduğu kimi:

*Dağların başında duman süd kimi,*
*Sərnici gözlərdi, daşırmaq olmaz,*
*Meşələr baftası dağ yamacının,*
*Nə süslü görünür İlisuda yaz...*

Mahirə xanım söz fırçası ilə bizi təbiətin içinə aparır, ətraf aləmin gözəlliyi ilə üzbəüz qoyur. Müşahidəçisi deyil, gördüyümüz təbiətin bir parçasına çevrilirik. Söz akvarelinin yaratdığı palitra ətraf aləmin gözəlliyini nə qədər parlaq ifadə edir..! Bəli, bu, şairin naturadan söz ilə yaratdığı ilahi mənzərədir. Təbiətin gözəlliyini təqdim etməklə bərabər, M.Nağıqızı oxucusunun gözləri önündə ərazinin toponomistik xəritəsini cızır, Azərbaycanın hər qarışında xalqımızın izini yada salır:

*Bahar darıxıbmış qış yuxusunda,*
*Dağları köksünə sıxmağa gəlib.*
*Cüyürlər elə bil Nohurgölündən,*
*Su içmir, özünə baxmağa gəlib.*

Azərbaycan təbiətinin bu cür təsvirinə poeziyamızda, inanmırıq ki, tez-tez rast gəlinə. Şair fərdi düşüncə tərzində, belə, bəşəridir: onun izhar etdiyi Dərd o qədər mərhəmdir ki, 500 il əvvəl Məhəmməd Füzulinin lirik “Mən”inin Tanrıdan diləyini xatırlayırsan: “Ya Rəb, bəlayi-eşq ilə qıl aşina məni! Bir dəm bəlayi-eşqdən etmə cüda məni! Az eyləmə inayətini əhli-dərddən. Yəni ki, çox bəlalarə qıl mübtəla məni!”. Bu dərdin özü sosialdır və həmin sosiallığın mahiyyətini Çingiz Aytmatovun “Cəllad kötüyü”ndəki personajlardan biri bu cür ifadə edir: “Vətəni daşımaq olmur, dərdi isə daşımaq mümkündür”. Mahirə xanımın şeir dilində isə o beləcə görünür:

*Allahım göndərən dərdi*
*Mənə bir bəndə gətirdi.*
*Yaxın durmaq istəmədim,*
*Saldı yüz fəndə, gətirdi.*

Mahirə Nağıqızı həmin Dərdin ünvanını bilir. Bu “təndir bişirməz dərdin” daşıyıcısı olan şair ürəyi millətinin aldığı yaralarından axan qanlardan birinin töküldüyü ünvana gedir. Və nəticədə “Xocalı üçün elegiya” şeiri yaranır. Həmin elegiyada isə 1992-ci ilin fevralında Azərbaycanın kiçicik bir şəhərində, Xocalıda ancaq etnik mənsubiyyətinə görə öldürülən insanların edam səhnəsini canlandırır.

Şeirdə diqqətçəkən ən vacib məqamlardan biri şairin dilidir. Mahirə Nağıqızının bütün yaradıcılığında onun poeziya dili gördüyü, dərk etdiyi həyat hadisələrini beləcə təqdim edir. Onun yanaşmaları o qədər zərif, ifadə tərzi o qədər orijinal olur ki, oxucu nəinki şairin təqdimatındakı mövzunu, hətta ifadə tərzinin doğmalığını anındaca duyur. “Vətən” şeiri bu mənada göstərə biləcəyimiz yüzlərlə nümunələrdən biridir:

*Bitər sərhədlərin bu yer üzündə,*
*Qəlbimdə sərhədin nədən bitmədi?*
*Gəmisən, üzürsən eşq dənizimdə,*
*Sənə məhəbbətim, Vətən, bitmədi.*

Bu, Vətənini sevən, onun ağrı və əzablarını özününkü bilən, “Əlimin qabarı, alnımın təri Köksünə atdığım bircə dən olsun”- arzusu ilə yaşayan insanın, Vətəndaşın duyğularıdır. O duyğular ona görə oxucu üçün doğmadır ki, səmimiyyətdən qidalanıb və həmin duyğunu ifadə edən hər söz, hər sətir dara düşmüş balası üçün fəryad edən ananın səsidir:



*Qan axan yarana gözüm yaşını*
*Dərman əvəziydi, səpələdim mən.*
*Bu da bir sınaqdı, əymə başını,*
*Sınıq əhvalına dözə bilmirəm.*

Hesab etmirik ki, illərdir dərdlərin ağırlığına, yaralarının dərinliyinə baxmayaraq ayaq üstə dayanan, torpaqlarını müvəqqəti olsa belə, itirən, lakin inam və ümidini itirməyən, elə həmin inam və ümidlə də yaşayan Vətənimizə bu cür oxşama deyilə, hə, oxşama... Ətrafı bürümüş zülmətin içində işıq axtarmaq, birinci növbədə şairlərin missiyasıdır. Bu missiya barədə eramızdan əvvəllər Aristotel elə beləcə deyirdi: tarixçilərin və şairlərin danışığı ancaq qafiyəsiz və yaxud qafiyəli olmasına görə fərqlənmir, həm də onunla fərqlənir ki, tarixçilər olanlar, şairlər isə olacaq barədə danışırlar.

Məlumdur ki, şeir bədii dilin özünəməxsus bir formasıdır. Burada iştirak edən komponentlər - səs, heca, söz, fraza danışıqda da müşahidə olunur, onlar poeziyadan kənarda da mövcuddur. Lakin, ölçü, bölgü, misra, vəzn, qafiyə və s. kimi vasitələr yalnız şeirdə özünü büruzə verir və poetik bütövlük yaradır ki, Mahirə Nağıqızı həm bir dilçi alim kimi, həm də şair kimi bü poetik komponentlərdən məharətlə istifadə edə bilir”.

Mahirə Nağıqızının yazdığı şeirlərin tematikasından asılı olmayaraq onların hər birində onun özünün obrazını görmək olur; bu, qadın- Ana, övlad- Ana tandemini təşkil edən obrazdır və həmin Ana şeirlərinin öz sevgisi qatılmış hər bir sətrində görünür. Hesab edirik ki, bu tendensiyanın şərtləndirdiyi “Dua” qadın olaraq dünyaya gəlmiş, ətrafında olan doğma insanlara, Vətən- dediyi torpağa və dünyanın özünə ünvanlanan ən bəşəri duyğuların təcəssümüdür və onun duasının Tanrı dərgahında keçərliliyinə qəlbimizdə ümid göyərtmək üçün bəs edər:

*Tanrım, üz qoyduğum dərgah*
*Tək xasıma kömək olsun!*
*Anaların bala adlı*
*Dünyasına kömək olsun!*

Mahirə Nağıqızının ümumən yaradıcılığı üçün xas olan keyfiyyət onun “Dua”sında daha qabarıq görünür: isti ürəklə soyuq, hətta üşüdə biləcək soyuq məntiqin yaratdığı ılıqlığın içində övladın Anası, yaxud Ananın övladı üçün arzuladığı dünyanın astanasında dayanır, içəri daxil olmağı isə hələlik ona görə istəmirsən ki, o duaların ritmi dəyişə bilər, qafiyəsi pozular. Həmin duaların hədəfinə yetəcəyinə isə inanırsan, varlığın qədər o inama ümid bəsləyirsən:

*Qibləyə tutdum üzümü,*
*Qəlbimdə dedim sözümü.*
*Haqq-ədalət çözümünü*
*Duyanına kömək olsun!*

Mahirə Nağıqızının şeirlərindəki tematika müxtəlifdir: o tematikanın ədəbi estetikasında və poetik düşüncələrinin episentrində şairin ancaq bioloji deyil, həmçinin ruhunun anasının portretini görmək, sezmək çətin deyil. Əlbəttə, bu nüansa diqqəti yönəldək ki, yaradıcılığı boyu səciyyəvi görünə biləcək bu gerçəkliyə hansısa milli mental rakurslardan baxmaq düzgün olmazdı: bu, fərdi genetik kodların təzahüründən başqa bir şey deyil. O kodlar ki, onları açmağa cəhdlər belə, bəri başdan hansısa uğur vəd etmir, lakin həmin kodların sədası ilə getməyə də tənbəllik etməyin, yüzə-yüz əminliklə bildiririk ki, o sədalar sizi onun dünyasının təşəkkülündə başlıca rol oynamış Ana qəlbinin astanasına qədər aparıb çıxaracaq. Və şair övladın “Anamla söhbət”inə qulaq verəcəksiniz. Bu söhbət insan ömrü üçün uzun illər sayıla biləcək bir zaman müddətində övladının yadında və qəlbində qalmış Ana portretini bütün cizgiləri ilə təqdim edə bilər. Əminliklə xatırlatmaq yerinə düşər ki, həmin portretin dolğunluğuna xidmət edən o cizgilərdə sezdikləriniz sizə o qədər doğma gələcək ki:

*Dənən, dəyişməyə gücümüzmü var,*
*Hökmümü Tanrının mənim, ya sənin.*
*Bilib də yolunnan getdi uşaqlar,*
*Ağamın, anamın, Həsən Mirzənin.*

Bu, minnətdar övladın qəlbində yetişmiş, izhar edilməyə can atan duyğuları ilə üz tutduğu, “Dizinin yanını” Vətən qədər müqəddəs bildiyi anası ilə baş-başa qalması, onun “ağaran saçlarındakı dənlərdə payını”n etirafıdır. Bu, bir möhtəşəm səhnənin insan bədənini titrədəcək anlarıdır. O, əlbəttə, Tanrının böyüklüyünü dərk edən, lakin dərk etdiyi “bu böyüklüyün” içində belə, söylədiyi nağılların sonunda “göydən düşən üç almanı bölməyə macal tapmayan” Ananın yerini, onun daşlaşan nağıllarının içində keçən ömrünü yada salır:

*Yenə açıq-aydın səsdə qulağın,*
*Yenə baxışların yollarda qalıb.*
*Ay ana, qocalan sən olmadın ki,*
*Ala bilmədiyin kamın qocalıb...*

Qətiyyətlə deyə bilərəm ki, yazdıqlarımız bu qeydləri oxuyursunuzsa, Sizi əminliklə təbrik etmək olar; ona da əminik ki, oxuduğunuz bu kitab, sözün birbaşa mənasında, ancaq “Onun daş nağılı” deyil, insanın yaddaşında daşlaşmış nağıllar da deyil, milləti min illərdir yaşadan, onu bezib də usanmaqdan çəkindirən, üfüqdəki dan yerinin şəfəqləri ilə sabaha çağıran, aparan bir himndir. İstedadlı, çox istedadlı şairin təfəkkürü və bədii istedadının sintezi olan bu himndə bütöv bir xalqın hansı dəyərlərlə yaşadığının növbəti dəfə şahidi olacağınıza şübhə etmirəm:

*Atamnan yanaşı daş qaldırardı,*
*Deyərdi bu daşlar ocaq daşıdı.*
*Bezmədi, qəlbində nə gücü vardı,*
*Anam sinəsində ocaq daşıdı.*

*Bir dəfə taledən gileylənmədi,*
*Tapdı ocağında, bizdə varlığı.*
*Yoxluğa sınmadı, yoxa enmədi,*
*Onu qorxutmadı daş ağırlığı.*

Etiraf etməliyik ki, bu, kamil bir sənət əsəridir və bu şeiri ilə Mahirə Nağıqızı Azərbaycan poeziyasında analarla bağlı ən gözəl poetik nümunələrdən birinin müəllifinə çevrilibdir. Şeir öz süjet xətti ilə ancaq bir Azərbaycan qadınının ömür yolunu açmır, o Qadının həyat fəlsəfəsini, ocaq qurmaq, övlad böyütmək fəlsəfəsinin mahiyyətini göstərir. Bu şeir, əminik ki, hər birimizin yanında, yaxud yaddaşında olan bir Ananın portretidir və etiraf edək ki, o portret canlı olduğu qədər də hər birimiz üçün mərhəmdir, doğma və əzizdir.

*O, daş əllərinnən durub o başdan,*
*Çöllərdə yavanlıq nə tapsa dərdi.*
*Bəlkə əllərinin daş olmağından*
*Utandı, özünə sığal vermədi.*

Və bu mənzərəni gözləri qarşısına gətirmək, hesab etmirik ki, kimdənsə geniş təxəyyül tələb etmiş olsun. Hə, bu, tipik Azərbaycan qadınıdır. Heç belə də demək istəməzdim, dünyanın bütün namuslu qadınlarının tipikləşdirilmiş obrazıdır: dünyanın bütün yerlərində, irqindən və inancından asılı olmayaraq Ana və Qadın obrazı. Mahirə Nağıqızının möcüzəli sayıla biləcək söz fırçasının yaratdığı bu obraz çəkdiyi qayğıları, yaşadığı intizarı ilə yandırdığı ocağın keşiyindədir; o, həmin ocağın istisində böyüyən övladlarının hər birinin ancaq qəlbini işıqlandırmır, yaddaşlarında əbədi qalmalı, yaşamalı olan həyat prinsiplərini həkk etməyə çalışır. Bu, ancaq ev-eşik qurmaq üçün sinəsində belə daş daşımaqdan qaçmayan, “Daşıdı daşları ağırlığıynan, Amma ürəyindən daş asılmayan” bir ananın övlad yaddaşından silinməyəcək əbədi “daş nağıllarıdır”:

*Qonşu qonşusunun varına deyil,*
*Halal peşəsinə küsənər- dedi.*
*Yalandı, haramdı düşmən, onu bil,*
*Yalana, harama uymaz ər- dedi.*

Zəngin ənənələri olan Azərbaycan poeziyasının bütün zamanlarda qadın şairləri olubdur və indən belə də olacağına şübhə etmirik. Məhsəti xanım Gəncəvidən üzü bu tərəfə adı çəkilən, imzaları görünən o qadın şairlər arasında Mahirə Nağıqızının adının ayrıca yeri olacağına isə Ön Söz yazdığımız “Onun daş nağılı” kitabındakı şeirləri oxuyandan sonra əmin olduq.

Dəfələrlə beynəlxalq müsabiqələrin qalibləri olan yeniyetmə rəssamlar Surə Dadaşzadənin və Abdulrəhim Bağırlının uğurları haqqında çox eşitmişik.Onlar hər ikisi iştirak etdikləri bütün müsabiqə və festivallarda, yaradıcılıq yarışmalarında həmişə qələbələrə imza atırlar. Hər iki yeniyetmə haqqında mən də bir neçə dəfə məqalə yazıb uğurları barədə geniş oxucu auditoriyasına ətraflı məlumat vermişəm. Bu günlərdə də eşitdim ki, onlar Yunanıstanda keçirilən VIII Beynəlxalq Uşaq Rəsm Müsabiqəsinə (Biennale) qatılaraq uğur qazanıblar.




# "Müsabiqələrdə bərabər qələbələrə imza atırıq"

**Sifai SƏFƏROVA**

## VIII Beynəlxalq Uşaq Rəsm Müsabiqəsi qaliblərinin uğur hekayələri

Təbii olaraq xarakterlərinə, yaradıcılıq potensiallarına yaxından bələd olduğum üçün bu istedad sahibləri ilə yenə də görüşüb həmsöhbət olmaq, yarışma barədə zəngin təəssüratlarını oxucularımızla bölüşmək istəyi ilə onlarla əlaqə yaratmaq fikrinə düşdüm. Xaraktercə mehriban və təvazökar olan yeniyetmələr xahişimi yenə də məmnuniyyətlə qəbul etdilər və biz onlarla görüşüb həmsöhbət olduq. Zərrəcə dəyişməmişdilər. Əvvəlki kimi xoş davranışlı, bir az da qayğılı görünürdülər. Amma sevincləri də yerə-göyə sığmırdı, bilirdilər ki, uğurları barədə bu dəfə də ətraflı məlumat alacağam və xoş təəssüratlarımı oxucularla bölüşəcəyəm. Həmişəki kimi ilk həmsöhbətim də elə Surə Dadaşzadədir.

### Sevincimizin hədd-hüdudu olmadı

Eşidəndə ki, Biennaleyə göndərdiyimiz rəsmlər münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib, birinci yerə layiq görülmüşük, sevincimizin hədd-hüdudu olmadı. Bu yarışmanın nəticəsində bir daha əmin oldum ki, çəkilən əziyyət heç vaxt hədər getmir. Festivala olduqca ciddi hazırlaşmışdım. Əvvəllər günün neçə saatını yaradıcılığa həsr edirdimsə bu yarışmaya hazırlıq dövründə onu ikiqat artırdım. Dərk edirdim ki, ciddi mübarizə şəraitində yarışmalı olacağam və orada ancaq yaxşıların yaxşısı qalib adını qazana biləcək. Bəzən o qədər işləyirdim ki, iş otağımdaca yuxu məni aparırdı. Ancaq nə qədər bərk yatsam da fırçam əlimdən yerə düşmürdü. Bir dəfə anam bunu hiss edərək gülə-gülə dedi ki, qızım gələcəyin çörək ağacını əlindən yerə salmır. Nə isə, bunu bir zarafat kimi də qəbul edə bilərsiniz. Demək istəyirəm günün çox vaxtını öz üzərimdə çalışırdım ki, yarışmanın qalibi olum. Və zəhmətim hədər getmədi, bu dəfə də arzum gerçək oldu. Sevinirəm ki, ailəmizə, müəllimlərimə, təhsil aldığım gimnaziyaya, məşğul olduğum dərnəyin rəhbərliyinə başucalığı qazandıra bildim. Bu yarışmaya müxtəlif ölkələrdən olduqca təcrübəli və istedadlı həmyaşıdlarımın qatılacaqlarını da bilirdim. Bu, həyəcanımı qeyri-ixtiyarı artırırdı. Şübhəsiz birinci olmaya da bilərdim və son nəticədə bu halla barışmalı da olardım. Çünki yaxşıların yaxşısı ilə yaradıcılıq yarışmasına qoşulmuşdum, hər şey ola bilərdi. Rəqiblərimin müsabiqəyə təqdim etdikləri kompozisiyalar olduqca dolğun və peşəkarlıq nümunələri idi. Buna görə də həyəcan məni bir an da rahat buraxmırdı. Ancaq şükür ki, qələbə mənim oldu. Heç bilirsiniz hansı hissləri yaşayırdım onda?- İnanın, bu şad xəbəri eşidəndə sanki, kosmik gəmidə başqa bir planetə uçuşdayam. Valideynlərimin sevinc hissləri mənə də bir dünya fərəh bəxş etdi. Əslində bu, sözlə ifadə olunası mümkün olmayan yaşanılan hisslər idi.

### Müəllimlərim mənimlə qürur hissi duyurlar

2006-cı ildə Bakı şəhərində anadan olmuşam. Milli Konservatoriyanın tərkibində Respublika İncəsənət Gimnaziyasının 7-ci sinfində təhsil alıram. Dərslərimə də diqqətlə yanaşıram, sinif yoldaşlarımdan geri qalmıram. Məktəbimizdə keçirilən bütün tədbirlərdə fəal şagird olaraq yaxından iştirak edirəm. Müəllimlərimin söylədiklərinə görə mənimlə qürur hissi duyurlar. Onlar məni ürək genişliyi ilə məktəbin ulduzu adlandırırlar.

### "Ölkəmizi məharətlə təmsil edirəm"

Surənin söylədiyi fikirləri mən də ürəkdən təsdiqləyirəm. İkimiz də eyni həyəcanlı və sevincli anları yaşamışıq. Demək olar ki, söyləyəcəklərimin hamısını o, ətraflı dedi. Surə də, mən də eyni təhsil ocağının şagirdləriyik və eyni dərnəkdə məşğul oluruq. Demək olar ki, bütün müsabiqələrdə də bərabər iştirak edirik və qələbələrə imza atırıq. Bu yarışmadan öncə mənim rəsm nümunələrim ölkəmizin hüdudlarından kənarda-Türkiyədə, Çexiyada, Yaponiyada, Bolqarıstanda və Sloveniyada keçirilən rəsm müsabiqələrində də yüksək qiymətləndirilərək diplom və fəxri fərmanlara layiq görülüb. İstər ölkədaxili, istərsə də beynəlxalq müsabiqələrdə gimnaziyanı və ölkəmizi məharətlə təmsil edirəm və hər dəfə də uğurlara imza atıram.

### Fərdi sərgilərim

Dəfələrlə fərdi sərgim keçirilib. Sərgidə nümayiş olunan rəsmlərim münsiflər heyəti tərəfindən bəyənilərək diplom və fəxri fərmanlara layiq görülüb.Təhsil ocağımızın rəhbəri Aytən Əhmədova məni və həmkarım Surəni çox sevir və bizi məktəbin fəxri şagirdləri sayır. Həmişə çalışacağam ki, kollektivimizin göstərdiyi etimadı doğruldum və bütün istedad yarışmalarında təhsil aldığım məktəbin başını uca edim.

…Növbəti istedad yarışmasından da qalib qismində qayıdan hər iki həmsöhbətimi dinləmək, onların istedadlarını təsdiqləyən faktları təkrar-təkrar eşitmək mənim üçün olduqca xoş olur. Hər dəfə də bu iki yeniyetmənin uğurları barədə məqalə hazırlayarkən qürur hissi keçirməyə bilmirəm. Dövlətimizin istedadlı yeniyetmə və gənclərə göstərdiyi diqqət və qayğıdan məharətlə bəhrələnən bu kimi yeniyetmə istedad sahiblərinin gələcəkdə korifey sənətkarlar ola biləcəklərinə ümid çırağı yanır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4462, **Sifariş** 1646

**Məsul növbətçi:** O.Mustafayev

# "WorldSkills Asia" onlayn təlimlərə başlayıb




İyulun 1-dən "WorldSkills Asia" təşkilatı tərəfindən üzv ölkələr üçün İKT istiqaməti üzrə 8 peşə bacarığını hədəfləyən onlayn təlimlərə başlanılıb.

130-dan çox nümayəndənin qatılacağı təlimlər İKT şəbəkə sistemlərinin idarə edilməsi, biznes üçün İKT həlləri, veb-dizayn və bu kimi digər sahələri əhatə edir. Təlimlərdə Azərbaycandan 5 peşə istiqaməti üzrə 6 mütəxəssisin iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, sözügedən təlimlər sahə mütəxəssislərinin biliklərinin artırılması və hazırda əmək bazarının tələb etdiyi bilik və bacarıqların təhsil sisteminə gətirilməsinə istiqamətləndirilib. Sözügedən təşkilat "WorldSkills" müsabiqəsinin Asiya qitəsi səviyyəsində aparılan regional əməkdaşlığı, yarışların keçirilməsi, həmçinin bilik və bacarıqların inkişaf etdirilməsi üzrə mümkün təcrübə mübadiləsini nəzərdə tutur.

# Etibarsız sayılır

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Cəfərov Şirinbala Rəsul oğluna verilmiş A-040497 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 1999-cu ildə Şirinova Arzu Cavanşir qızına verilmiş A-051161 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2013-cü ildə Hüseynov Namiq Şamil oğluna verilmiş A-006939 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər fizika-riyaziyyat və humanitar təmayüllü liseyi** 2007-ci ildə bitirmiş Rəhimli Səda Nizami qızına verilmiş B-395687 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Orucov Samir Qiyasəddin oğluna verilmiş A-394659 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Hərbi Birləşmiş Komandanlıq Məktəbi** tərəfindən 1998-ci ildə Alıyev Elşən İbrahim oğluna verilmiş MN 0005895 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Məmmədvəliyev İsa İbrahimxəlil oğluna verilmiş A-352657 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Mehdili kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Rüstəmov Əzəmət Eyvaz oğluna verilmiş A-340797 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı 138 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 2005-ci ildə Mamedov Sahil Hümbət oğluna verilmiş BB-012850 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Quliyev Sahib Xudaqulu oğluna verilmiş A-301098 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Şilavəngə kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş İsparov Kamran Aslan oğluna verilmiş A-457838 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2011-ci ildə Rüstəmov Murad Azər oğluna verilmiş B-205908 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Baş Kəldək kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Dəmirova Səmayə Şahin qızına verilmiş 164 nömrəli orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Hüseynova Sevil Fəxrəddin qızına verilmiş BN-596418 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Rəhimova Aysel Marif qızına verilmiş B-194710 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 4 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş İsmayılov (Rəhimov) Ruslan Rövşən oğluna verilmiş A-125885 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Yaqubov İlyas Gündüz oğluna verilmiş E-201657 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin Nanomaterialların kimyəvi fizikası kafedrasının müəllimi, beynəlxalq fizika olimpiada komandasının rəhbəri

**NAQİF NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.



# Dünyanın ən gənc universitetləri

## Son 50 ildə Asiyada yeni ali təhsil müəssisələrinin sayında davamlı artım müşahidə olunur

**Oruc MUSTAFAYEV**

Müasir dünyanın trendləri ali məktəblər arasında rəqabəti gündən-günə gücləndirməkdədir. Dünyanın kəskinləşən çağırışları təkcə nüfuzlu ali təhsil müəssisələrini deyil, həm də gənc universitetləri də əhatə etməkdədir. Bu rəqabətlilik mühitində dünyanın yaşı 50 və daha az olan ali məktəbləri də öz mövqelərini gücləndirərək ən nüfuzlu dünya liderlərindən geridə qalmadıqlarını əyani surətdə göstərməkdədir.

Artıq bir neçə ildir ki, dünyanın son 50 ildə yaradılmış ən gənc ali məktəblərinin reytinqini tərtib edən Böyük Britaniyanın “The Times Higher Education” jurnalı növbəti dəfə bu mövzuya müraciət etməklə 2020-ci il üzrə gənc ali məktəblərin artan fəallığına diqqət çəkib. Növbəti reytinqdə (THE Young University Rankings -2020) yaşı 50-yə qədər olan 414 (ötən il 341) ali məktəb yer alıb. Reytinq son 50 ildə Asiyada yeni ali təhsil müəssisələrinin sayında davamlı artımın olduğunu göstərir.

Reytinqə görə, Asiya ilk dəfə olaraq dünyanın iki aparıcı gənc universitetinə ev sahibliyi edir. Honkonq Elm və Texnologiya Universiteti üçüncü il ardıcıl olaraq gənc universitetlərin reytinqində lider mövqedədir, Sinqapurun Nanyanq Texnologiya Universiteti isə keçən illə (3-cü yer) müqayisədə bu dəfə ikinci sırada yer alıb. Hər iki universitet tədqiqat və biliklərin ötürülməsi sahəsində yüksək vizyon nümayiş etdirməklə beynəlxalq perspektivlər və elmi sitatların təsirinə görə çoxsaylı oxşar profillərə malikdir.

Ötən ilki reytinqdə 2-ci yerdə olan İsveçrənin Lozanna Federal Politexnik Məktəbi 51 yaşını qeyd etdiyindən builki sıralamadan kənarda qalıb. Asiya universitetləri ilk iki yeri tutarkən, ümumiyyətlə, top-10-luq Asiya və Avropa universitetləri arasında bölünüb. İlk beşliyə Paris Elm və Ədəbiyyat Universiteti (PSL Research), İtaliyanın Qabaqcıl Tədqiqatlar Məktəbi (Sant'Anna School of Advanced Studies - Pisa), Cənubi Koreyanın Qabaqcıl Elmlər və Texnologiya İnstitutu (KAİST) daxil olub. Paris Universiteti ötən il birləşdikdən sonra 11-ci yeri tutmaqla reytinqdə yeni rekorda imza atıb. Böyük Britaniya reytinqdə 36, İspaniya 27, Fransa və Hindistan isə 26, Türkiyə 23, Avstraliya 22, İran 20, Tayvan 16, Yaponiya 14, Çin 6, ABŞ 4, Kanada 3, Rusiya 2 universitetlə təmsil olunur. Lakin Avstraliya növbəti dəfə reytinqin yuxarı eşelonlarında istənilən digər ölkə ilə müqayisədə daha çox yer əldə etməsi ilə fərqlənib. Belə ki, Avstraliya top-100-lükdə 17 (ötən il 15) yer alıb. Yalnız Fransa 14 mövqe ilə bu nəticəyə bir qədər yaxınlaşıb. Böyük Britaniyanın ilk 100-lükdə 5 universiteti yerləşib.

Hindistan, eyni zamanda, reytinqdə ən güclü məhsuldarlıq nümayiş etdirir: ilk dəfə ən yaxşı 70 ali məktəb sırasına Hindistanın 2 ali təhsil müəssisəsi - (Hindistan Texnologiya İnstitutu Ropar və Hindistan Texnologiya İnstitutu İndore) daxil olub.

Ümumilikdə, reytinq 66 ölkəni əhatə edir. Gənc universitetlərin reytinqi qlobal dünya reytinqləri ilə eyni göstəricilərə əsaslanır. Lakin gənc universitetlərin missiyasını əks etdirmək üçün çəki əmsalları yenidən hesablanır, tədqiqat məhsuldarlığı, kadr və tələbə nisbəti, institusional gəlir və doktorantura təhsili kimi amillərə daha çox diqqət yetirilir.

Bütövlükdə isə reytinq tərtibçiləri elmi tədqiqatlar (nəşrlərin sayı, alimlərin rəyləri, əldə olunmuş qrantlar), elmi işlərdən sitatgətirilmə, tədrisin keyfiyyəti (müəllim-tələbə nisbəti, elmi dərəcə sahiblərinin payı və sairə), beynəlxalq aktivlik, beynəlxalq mübadilə, innovasiyaların tətbiqindən əldə olunmuş gəlirlər kimi 13 kriteriyanı əsas götürüblər.

Reytinqlə daha ətraflı *www.timeshighereducation.com/world-university-rankings/2020/young-university-rankings* səhifəsindən tanış olmaq olar.

| Reytinq | Ali məktəbin adı | Ölkə | Tələbələrin ümumi sayı | Tələbə-müəllim nisbəti | Beynəlxalq tələbələr | Qadın:kişi nisbəti |
|---|---|---|---|---|---|---|
| 1. | The Hong Kong University of Science and Technology | Honkonq | 10,125 | 22.3 | 31% | əks olunmayıb |
| 2. | Nanyang Technological University | Singapore | 25,088 | 15.9 | 27% | 48 : 52 |
| 3. | Paris Sciences et Lettres – PSL Research University | Fransa | 21,298 | 11.5 | 26% | 46 : 54 |
| 4. | Sant’Anna School of Advanced Studies – Pisa | İtaliya | 776 | 12.4 | 19% | 5 : 65 |
| 5. | Korea Advanced Institute of Science and Technology | Cənubi Koreya | 9,481 | 10.2 | 8% | 20 : 80 |
| 6. | Maastricht University | Niderland | 6,857 | 18.6 | 54% | 60 : 40 |
| 7. | City University of Hong Kong | Honkonq | 9,587 | 11.0 | 45% | 59 : 41 |
| 8. | Pohang University of Science and Technology | Cənubi Koreya | 3,215 | 10.3 | 3% | 23 : 77 |
| 9. | Sorbonne University | Fransa | 43,076 | 13.5 | 19% | 58 : 42 |
| 10 | Pompeu Fabra University | İspaniya | 11,636 | 21.6 | 13% | 60 : 40 |
| 11. | University of Paris | Fransa | 61,390 | 17% | 17% | 64 : 36 |
| 12. | University of Luxembourg | Lüksemburq | 4,654 | 18.7 | 49% | 51 : 49 |
| 13. | University of Antwerp | Belçika | 15,166 | 29.3 | 17% | 55 : 45 |
| 14. | Queensland University of Technology | Avstraliya | 34,871 | 38.2 | 16% | 54 : 46 |
| 15. | University of Technology Sydney | Avstraliya | 26,385 | 43.4 | 34% | 51 : 49 |
| 16. | University of Duisburg-Essen | Almaniya | 42,698 | 53.0 | 19% | 48 : 52 |
| 17. | Ulsan National Institute of Science and Technology | Cənubi Koreya | 4,127 | 13.9 | 8% | 26 : 74 |
| 18. | University of Canberra | Avstraliya | 10,823 | 36.2 | 32% | əks olunmayıb |
| 19. | Hong Kong Polytechnic University | Honkonq | 20,388 | 23.1 | 25% | 52 : 48 |
| 20. | Aalto University | Finlandiya | 12,195 | 18.6 | 26% | 34 : 66 |
| 21. | Vita-Salute San Raffaele University | İtaliya | 2,610 | 10.7 | 3% | 59 : 41 |
| 22. | University of Passau | Almaniya | 11,387 | 86.6 | 12% | 59 : 41 |
| 23. | Aalborg University | Danimarka | 16,340 | 13.6 | 15% | əks olunmayıb |
| 24. | Medical University of Graz | Avstriya | 3,352 | 10.9 | 24% | 53 : 47 |
| 25. | University of South Avstralia | Avstraliya | 20,268 | 30.5 | 25% | 58 : 42 |
| 26 | University of Wollongong | Avstraliya | 18,642 | 31.5 | 29% | 52 : 48 |
| 27 | Medical University of Vienna | Avstriya | 7,142 | 8.1 | 30% | 52 : 48 |
| 28 | University of Potsdam | Almaniya | 20,063 | 53.9 | 11% | 57 : 43 |
| 29 | James Cook University | Avstraliya | 11,491 | 21.2 | 11% | 63 : 37 |
| 30 | Griffith University | Avstraliya | 34,120 | 23.6 | 17% | 58 : 42 |
| =31 | Alfaisal University | Səudiyyə Ərəbistanı | 2,566 | 10.4 | 34% | 60 : 40 |
| =31 | Paris-Sud University | Fransa | 28,726 | 14.5 | 17% | 56 : 44 |
| 33 | Jacobs University | Almaniya | 1,142 | 16.2 | 76% | 45 : 55 |
| =34 | Curtin University | Avstraliya | 29,214 | 20.2 | 31% | 51 : 49 |
| =34 | Tampere University | Finlandiya | 15,149 | 21.8 | 6% | 51 : 49 |
| =36 | Medical University of Innsbruck | Avstriya | 2,966 | 4.3 | 44% | 52 : 48 |
| =36 | Western Sydney University | Avstraliya | 32,259 | 35.7 | 17% | 56 : 44 |
| 38 | Macau University of Science and Technology | Makao | 9,924 | 24.4 | 79% | 56 : 44 |
| 39 | George Mason University | ABŞ | 29,377 | 18.0 | 10% | 54 : 46 |
| 40 | Auckland University of Technology | Yeni Zelandiya | 18,035 | 17.1 | 47% | 59 : 41 |
| 41 | HSE University | Rusiya | 22,111 | 13.1 | 9% | əks olunmayıb |
| 42 | University of Macau | Makao | 9,340 | 14.4 | 37% | 57 : 43 |
| 43 | Maynooth University | İrlandiya | 9,291 | 28.3 | 12% | 55 : 45 |
| 44 | Brighton and Sussex Medical School | Böyük Britaniya | 879 | 11.3 | 15% | 57 : 43 |
| 45 | Swedish University of Agricultural Sciences | İsveç | 3,737 | 4.5 | 4% | 69 : 31 |
| 46 | Hasselt University | Belçika | 5,189 | 31.1 | 13% | 47 : 53 |
| =47 | Khalifa University United | Birləşmiş Ərəb Əmirlikləri | 3,651 | 9.5 | 26% | 55 : 45 |
| =47 | Southern University of Science and Technology | Çin | 3,198 | 9.5 | 0% | 27 : 73 |
| 49 | University of Bremen | Almaniya | 18,915 | 31.9 | 12% | 51 : 49 |
| 50 | United Arab Emirates University | Birləşmiş Ərəb Əmirlikləri | 7,523 | 9.2 | 21% | 83 : 17 |
| 51 | University of Bayreuth | Almaniya | 9,255 | 29.7 | 10% | 46 : 54 |
| =52 | University of Klagenfurt Austria | Avstriya | 3,639 | 10.8 | 22% | 69 : 31 |
| =52 | Rush University | ABŞ | 2,425 | 2.0 | 1% | 74 : 26 |
| 54 | Università della Svizzera Italiana | İsveçrə | 2,768 | 10.8 | 67% | 49 : 51 |
| 55 | Deakin University | Avstraliya | 39,305 | 28.6 | 22% | 58 : 42 |
| 56 | Victoria University | Avstraliya | 14,815 | 32.2 | 23% | 53 : 47 |
| =57 | Cyprus University of Technology | Kipr | 3,228 | 17.4 | 8% | 54 : 46 |
| =57 | Grenoble Alpes University | Fransa | 41,411 | 17.6 | 13% | 52 : 48 |
| =59 | Aix-Marseille University | Fransa | 67,857 | 16.6 | 12% | 59 : 41 |
| =59 | IMT Atlantique | Fransa | 1,676 | 8.2 | 44% | 26 : 74 |
| =59 | Reykjavík University | İslandiya | 2,879 | 24.9 | 8% | 41 : 59 |
| =62 | Indian Institute of Technology Ropar | Hindistan | 1,119 | 7.6 | 0% | 13 : 87 |
| =62 | Swinburne University of Technology | Avstraliya | 14,379 | 27.9 | 27% | 36 : 64 |
| 64 | Indian Institute of Technology Indore | Hindistan | 1,128 | 9.7 | 0% | 17 : 83 |
| =65 | University of California, Merced | ABŞ | 7,324 | 20.9 | 8% | 51 : 49 |
| =65 | Montpellier University | Fransa | 39,405 | 19.5 | 15% | 53 : 47 |
| =65 | Université de Versailles Saint-Quentin-en-Yvelines | Fransa | 16,621 | 21.2 | 15% | 59 : 41 |
| 68 | Gwangju Institute of Science and Technology | Cənubi Koreya | 2,098 | 12.1 | 6% | 25 : 75 |
| 69 | Sabancı University | Türkiyə | 3,605 | 21.5 | 9% | 37 : 63 |
| 70 | Australian Catholic University | Avstraliya | 23,886 | 43.5 | 12% | 73 : 27 |
| 71 | University of KwaZulu-Natal | Cənubi Afrika Respublikası | 36,660 | 29.2 | 4% | 58 : 42 |
| 72 | Centrale Nantes | Fransa | 1,706 | 16.1 | 45% | 26 : 74 |
| 73 | Qatar University | Qətər | 15,585 | 17.3 | 38% | 76 : 24 |
| 74 | Babol Noshirvani University of Technology | İran | 5,744 | 29.6 | 0% | 32 : 68 |
| 75 | Örebro University | İsveç | 9,735 | 18.5 | 6% | 61 : 39 |
| =76 | University of Crete | Yunanıstan | 13,321 | 23.4 | 4% | 62 : 38 |
| =76 | RMIT University | Avstraliya | 33,848 | 22.4 | 30% | 47 : 53 |
| 78 | Universiti Brunei Darussalam | Bruney | 3,830 | 10.9 | 15% | 67 : 33 |
| 79 | University of Occupational and Environmental Health | Yaponiya | 1,142 | 2.6 | 1% | 54 : 46 |
| 80 | Northumbria University | Böyük Britaniya | 21,811 | 17.5 | 17% | 55 : 45 |
| 81 | Linköping University | İsveç | 18,544 | 11.2 | 12% | 53 : 47 |
| 82 | University of Côte d’Azur | Fransa | 36,706 | 23.0 | 23% | 55 : 45 |
| 83 | University of Milan-Bicocca | İtaliya | 26,509 | 28.9 | 6% | 62 : 38 |
| 84 | University of Cyprus | Kipr | 6,635 | 22.0 | 11% | 66 : 34 |
| 85 | Jordan University of Science and Technology | İordaniya | 21,512 | 13.4 | 17% | 58 : 42 |
| =86 | University of Bordeaux | Fransa | 54,965 | 21.6 | 13% | 58 : 42 |
| =86 | Polytechnic University of Bari | İtaliya | 6,122 | 24.4 | 1% | 33 : 67 |
| 88 | Cankaya University | Türkiyə | 9,164 | 28.4 | 2% | 45 : 55 |
| 89 | Murdoch University | Avstraliya | 14,905 | 27.7 | 37% | 60 : 40 |
| =90 | Koç University | Türkiyə | 5,381 | 15.6 | 6% | 51 : 49 |
| =90 | Middlesex University | Böyük Britaniya | 15,649 | 18.0 | 45% | 60 : 40 |
| 92 | Hong Kong Baptist University | Honkonq | 8,759 | 11.6 | 45% | 65 : 35 |
| =93 | Edith Cowan University | Avstraliya | 17,560 | 31.3 | 26% | 60 : 40 |
| =93 | Verona University | İtaliya | 19,873 | 27.5 | 5% | 64 : 36 |
| =95 | Bournemouth University | Böyük Britaniya | 13,692 | 17.1 | 18% | 55 : 45 |
| =95. | National Taiwan University of Science and Technology | Tayvan | 8,340 | 19.5 | 15% | 30 : 70 |
| 97 | Bond University | Avstraliya | 3,341 | 10.3 | 43% | 54 : 46 |
| 98 | Free University of Bozen-Bolzano | İtaliya | 3,891 | 12.0 | 13% | 67 : 33 |
| =99 | Diego Portales University | Çili | 17,287 | 14.9 | 2% | 49 : 51 |
| =99 | Florida International University | ABŞ | 34,203 | 23.8 | 8% | 57 : 43 |



*Nanyanq Texnologiya Universiteti*



*Paris Perspektiv Tədqiqatlar Məktəbi*



*Koreya Qabaqcıl Elm və Texnologiyalar İnstitutu*



*Mastrixt Universiteti*